**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RÖFƏT ƏLİ oğlu QULİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK İŞİNİN TƏŞKİLİ VƏ İNKİŞAFI TARİXİ (1991-2011-Cİ İLLƏR)

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Respublikasının müasir tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:**
AMEA-nın həqiqi üzvü **İ.M. Hacıyev**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **M.N. Quluzadə**
Tarix üzrə elmlər doktoru **Ə.Q. Qasımov**
Tarix üzrə elmlər doktoru **N.Z. Məmmədov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universiteti "Azərbaycan tarixi" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – "Vətən tarixi" ixtisası üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "____"__________ 2018-ci il tarixli iclasında saat "___"-da keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________" 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi, t.ü.f.d., dosent:** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanda gömrük işi çoxəsrlik zəngin bir tarixi yol keçmişdir. Ölkəmiz Şərqlə Qərb, Şimalla Cənub arasında iqtisadi-ticarət və mədəni əlaqələrin yaranmasında mühüm rol oynayan "Böyük İpək yolu" üzərində yerləşdiyindən, hələ qədim zamanlardan bu ərazidə gömrük məntəqələri və gömrük işi ilə bağlı xidmətlər fəaliyyət göstərmişdir. Tədqiqata cəlb edilən gömrük işi mahiyyətcə malların və ya digər əşyaların gömrük sərhədindən keçirilməsi qaydaları və gömrük vergisinə cəlb olunması, gömrük siyasətini və nəzarətini həyata keçirən vasitələrin məcmusudur. Bu mənada, gömrük quruculuğu tarixi əslində gömrük işinin təşkilati və hüquqi əsaslarının yaradılması, dövlətin gömrük siyasətinin həyata keçirilməsi, o cümlədən gömrük rüsum və vergilərini nizamlayan gömrük tariflərinin formalaşması tarixidir.

XX yüzilliyin son onilliyində sovet imperiyasının süquta uğraması ilə xalqımızın müstəqil yaşayıb yaratmaq arzusu yenidən öz həllini tapdı. 1991-ci ilin oktyabrın 18-də "Müstəqillik haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi ilə dövlət suverenliyimiz hüquqi status aldı. Milli dövlət quruculuğu sahəsində təxirəsalınmaz vəzifələrindən biri də, sözsüz ki, xarici-iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatları üzərində nəzarət sisteminin yaradılması, ölkənin iqtisadi maraqlarının etibarlı şəkildə mühafizə olunması idi. Belə bir tarixi şəraitdə müstəqil dövlət quruculuğu prosesinin ən mühüm vəzifələrdən biri daxili bazarın qorunması və xarici bazarlara çıxış əldə etmək imkanının yaradılması idi ki, bunun da yolu müasir gömrük sisteminin yaradılmasından keçirdi. Azərbaycanın dünyanın aparıcı dövlətləri, həmçinin qonşu dövlətlər olan Türkiyə və İranla, başda Rusiya olmaqla keçmiş postsovet respublikaları ilə beynəlxalq hüquq normalarına əsaslanan iqtisadi-ticarət və gömrük münasibətlərinin qurulması vəzifəsi bütün kəskinliyi ilə qarşıda dururdu. Əslində, xarici iqtisadi əlaqələrin təhlükəsizliyi problemi dövlət müstəqilliyini yenicə əldə edən Azərbaycan üçün heç də yeni hadisə deyildi. Lakin müstəqilliyimizin ilk illərində iqtisadi təhlükəsizliyin keşiyində durmalı olan gömrük xidmətinin fəaliyyətində yol verilən mənfi hallar, digər tərəfdən isə bazar iqtisadiyyatına keçid dövrünün çətinlikləri xarici iqtisadi-ticarət əlaqələrinin normal inkişafına ciddi əngəl törədirdi. Ölkədə hökm sürən siyasi hərc-mərclik, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi nəticəsində meydana gələn dərin siyasi və iqtisadi-sosial böhran gömrük işinin düzgün təşkilinə, hüquqi-normativ əsaslarının yaradılmasına və bütövlükdə səmərəli gömrük siyasətinin yürüdülməsinə mənfi təsir

göstərirdi. Bütövlükdə ölkə iqtisadiyyatı, o cümlədən gömrük sərhədinin təhlükəsizliyi məsələləri hakimiyyətin nəzarətindən çıxmışdı.

Azərbaycan xalqının yekdil tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin iqtisadi gerilikdən çıxarılması yollarını müəyyən edərkən gömrük xidmətinin üzərinə mühüm vəzifələr düşdüyünü, bu sahədə əsaslı dönüş yaradılmasını nəzərdə tutaraq deyirdi: "... biz Azərbaycanda gömrük orqanlarının işini kökündən dəyişdirməliyik, sağlam əsaslar üzərində qurmalıyıq. Həqiqi gömrük orqanları qurulmalıdır. Bu, bizim bugünkü dövrümüz və müstəqil Azərbaycanın gələcəyi üçün ən zəruri vəzifələrdən biridir".[1] 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə gömrük xidmətində aparılan əsaslı islahatların nəticəsi olaraq, beynəlxalq tələblərə cavab verən gömrük nəzarəti sistemi və infrastrukturu yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ilə gömrük işinin hüquqi-normativ bazasının yaradılması işinə başlanıldı.

Dövlət idarəçiliyində gömrük işi bir neçə formada: gömrük orqanları sisteminin yaradılması, gömrük nəzarətinin hüquqi və tarif tənzimlənməsi, gömrük rəsmiləşdirilməsi, gömrük qaydalarının pozulması hallarının tədqiqi və təhqiqatının təşkili ilə reallaşdırılır. Müasir dövrdə gömrük işi beynəlxalq gömrük münasibətləri sisteminə inteqrasiya etmiş, gömrük siyasəti, gömrük qanunvericiliyi, gömrük-tarif sistemi milli sərhədləri aşmışdır. Gömrük sistemi beynəlxalq siyasi, iqtisadi, hüquqi, informasiya təhlükəsizliyinin və digər faktorların ciddi təsirinə məruz qalmışdır.

Beynəlxalq iqtisadi-ticarət münasibətlər genişləndikcə gömrük işi sahəsində yeni hüquqi normalar və anlayışlar formalaşır, gömrük prosedurları və rejimləri ciddi dəyişikliyə uğrayır. Digər tərəfdən, gömrük işi qaçaqmalçılıq hallarının, o cümlədən narkotik və psixotrop maddələrin, silah, zəhərli və radioaktiv tullantıların, saxta dərman vasitələrinin, çirkli pulların axınlarının qlobal xarakter alması, oğurlanmış mədəniyyət və incəsənət əşyaları ilə ticarətin təhlükəli templərlə inkişaf etməsi fonunda milli suverenliyin qorunması və xarici rəqiblərin ekspansiyasından müdafiənin ən zəruri üsuluna çevrilir.

Postneft dövrünə keçidlə bağlı gömrük siyasətinin yürüdülməsində baş verən dəyişikliklər və dövlət büdcəsinin maksimum dərəcədə gəlirlərlə təmin edilməsi zərurətigömrük xidmətinin yeni reallıqlara cavab verəcək şəkildə daha təkmil vəziyyətə gətirilməsini və ölkədə təhlükəsiz biznes mühitinin yaradılmasını tələb edir.

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. III kitab (dekabr, 1994 – iyun, 1995). Bakı: 1997, s.112

Beləliklə, gömrük xidmətinin yenidən qurulması və modernləşdirilməsi siyasəti ölkənin inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirildi. Neft strategiyasının reallaşdırılmasında hər bir müvafiq dövlət orqanının, o cümlədən gömrük orqanlarının yeri və vəzifələri dəqiq müəyyən olundu. Bu vəzifələrin yerinə yetirilməsi üçün normativ-hüquqi, təşkilati və praktiki tədbirlər həyata keçirildi. Qısa zaman kəsiyində ölkənin gömrük sistemi tamamilə yenidən quruldu, təşkilati-texniki və hüquqi mexanizmi işlək vəziyyətə gətirildi. Gömrük xidmətində yüksək nizam-intizam və peşəkarlıq mühiti formalaşdırıldı, hər bir gömrük əməkdaşının öz xalqına və peşəsinə sadiqliyi, qanunçuluğa ciddi riayət etməsi kimi prinsiplər əsas meyara çevrildi. Ölkənin büdcə gəlirlərində gömrük daxilolmalarının payı müxtəlif illər ərzində orta hesabla 15-18 faizə yüksəldi.

Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, xarici iqtisadi-ticarət fəaliyyətin genişlənməsi dövlət quruculuğu işində gömrük xidmətinin rolunu və sosial-iqtisadi və siyasi əhəmiyyətini daha da artırdı. Qabaqcıl ölkələrin gömrük təşkilatları ilə narkotik vasitələrin, psixotrop maddələrin, silahların, kimyəvi, bioloji maddələrin, nüvə və radioaktiv materialların idxal və tranzitinə nəzarət edilməsində, beynəlxalq terrorizmlə mübarizə zamanı ən etibarlı nəzarət texnologiyalarının tətbiqi sahəsində əməkdaşlıq daha da inkişaf etdirildi.

Müasir dövrdə Azərbaycan Respublikasının gömrük strategiyası məhz bu iqtisadi-siyasi amillərin təsiri altında işlənilib hazırlanır və həyata keçirilməkdədir:

– ölkə ərazisinin Avropa və Asiyanın qovuşuğunda mühüm nəqliyyat koridoruna çevirən əlverişli coğrafi mövqeyə malik olması;

– Qərb dövlətlərinin regionda nüfuz dairəsinin genişlənməsi uğrunda geosiyasi qarşıdurmasının mövcudluğu, ölkəmizin karbohidrogen ehtiyatlarının çıxarılmasına və dünya bazarına daşınmasına olan maraqların artması;

– Azərbaycan Respublikasının ərazisinin bir hissəsinin Ermənistanın işğal etməsi nəticəsində gömrük sərhədinin pozulması və həmin ərazilərin təcavüzkar qonşularımız tərəfindən beynəlxalq qaçaqmalçılıq və narkotik ticarəti meydanına çevrilməsinin qarşısının alınması;

– ölkədə əlverişli iqtisadi mühit yaratmaqla xarici investisiyaların cəlbinə nail olunması, idxaldan asılılığının azaldılması və səmərəli valyuta siyasətinin yürüdülməsinin həyati əhəmiyyət kəsb etməsi;

– milli gömrük qanunvericiliyinin və infrastrukturunun beynəlxalq tələblərə uyğunlaşdırılmasının zəruri olması.

Məhz bu amilləri nəzərə alan Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ölkəmizin gömrük orqanlarının tarixini xatırladaraq demişdir ki, "müstəqillik əldə etdikdən sonra Azərbaycanda gömrük sistemi öz işinə sıfırdan başlayıbdır. Müstəqillik dövründə dövlət üçün yeni olan bu qurum qısa vaxtda kifayət qədər təcrübə toplayıb...".[1]

Gömrük işinin təşkili və inkişafı tarixinin tədqiqata cəlb edilməsinin aktuallığı başlıca olaraq aşağıdakı şərtlərdən irəli gəlir: 1) gömrük işinin ölkənin sosial-iqtisadi inkişafına təsir dairəsinin daha da artması və cəmiyyət həyatında baş verən dəyişikliklərə yüksək transformasiya qabiliyyətinə malik olması; 2) milli və iqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük siyasətinin prioritet xarakter daşıması, bu istiqamətdə fəaliyyət sahəsinin yeni forma və məzmun kəsb etməsi; 3) dövlətlərarası inteqrasiya proseslərinin güclənməsi şəraitində ərzaq və enerji təhlükəsizliyi məsələlərinin ön plana keçməsi və bu əsasda gömrük nəzarətinin iqtisadi təhlükəsizliyimizin əsas qarantlarından biri olması; 4) ölkəmizin gömrük sərhədinin təhlükəsizliyinə zərər vura bilən cinayətlərin və hüquqpozma-ların aşkar olunması və qarşısının alınması sahəsində gömrük orqanlarının işinin səmərəliliyinə olan tələblərin artması; 5) gömrük nəzarətinin təşkilinin bütün istiqamətləri üzrə (hüquqi, texniki, məlumatların qarşılıqlı mübadiləsi və s.) xarici ölkələrin gömrük orqanları ilə əməkdaşlığın geniş xarakter alması; 6) ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində, ölkəyə zəhərli və radioaktiv tullantıların daxil olmasının və digər bioloji təhdidlərin qarşısının alınmasında gömrük xidmətinin fəaliyyət dairəsinin genişlənməsi; 7) qlobal və regional miqyasda qaçaqmalçılıq hallarının, o cümlədən narkotik və psixotrop maddələrin, silahların, saxta dərman vasitələrinin, "çirkli pullar" axınının, oğurlanmış mədəniyyət və incəsənət nümunələri ilə ticarətin təhlükəli templərlə inkişaf etməsi; 8) müasir dövrdə cəmiyyətdə gömrük xidməti qarşısında duran vəzifələrin yerinə yetirilməsinə, o cümlədən dövlət büdcəsinə daxil olan ödənişlərin artırılmasına, xarici iqtisadi fəaliyyət iştirakçılarının hüquqlarının müdafiəsinə, ölkəmizin və xarici ölkə vətəndaşlarına gömrük-sərhəd keçidlərində normal xidmət şəraitinin yaradılmasına yönəlmiş "sosial sifariş" və tələblərin artması.

Müstəqillik dövründə ölkənin iqtisadi-siyasi problemləri ilə sıx bağlı olan gömrük işinin tarixşünaslığımızda indiyə qədər dissertasiya mövzusu olaraq işlənilməməsi tədqiqatın aktuallığını artıran şərtlərdən biridir. Tədqiqat işinin mövzusu seçilərkən problemin yuxarıda göstərilən cəhətləri nəzərə alınmışdır.

---

[1] Əliyev İlham. İnkişaf məqsədimizdir. XV kitab. Bakı: Azərnəşr, 2014, s.100

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın tədqiqat dairəsi başlıca olaraq, 1991-ci ilin oktyabrın 18-dən, dövlət müstəqilliyinin bərpasından başlamış, 2011-ci ilə qədər olan dövrdə Azərbaycan Respublikasında gömrük işinin təşkili və inkişafı tarixini əhatə edir. Dövlətçilik tariximizin müxtəlif dövrlərində gömrük sisteminin dövlət idarəçiliyində xüsusi əhəmiyyəti nəzərə alınaraq, daha öncəki tarixi dövrün gömrük quruculuğu məsələləri də tədqiqata cəlb edilmişdir.

Tədqiqat işinin xronoloji çərçivəsi daxilində gömrük işinin təşkili və inkişafının nəticələri geniş faktoloji materiallar əsasında və nəzəri müddəalarla əsaslandırılaraq mərhələlərə ayrılmışdır:

1992-1994-cü illər, gömrük xidmətinin müstəqil bir qurum kimi fəaliyyətində bir çox əyintilərə və nöqsanlara yol verilməsi, gömrük xidmətinin bir sıra obyektiv və subyektiv amillər nəticəsində müasir tələblərdən geri qalması – birinci mərhələ;

1995-2000-ci illər, gömrük sisteminin maddi-texniki, hüquqi-normativ bazasının və kadr potensialının formalaşması ilə başa çatdırılması – ikinci mərhələ;

2001-2006-cı illər, gömrük işinin keyfiyyətcə yeni mərhələyə daxil olması, milli gömrük qanunvericiliyinin daha da təkmilləşdirilməsi, gömrük təşkilatının beynəlxalq gömrük münasibətlərinin fəal iştirakçısı səviyyəsinə yüksəlməsi – üçüncü mərhələ;

2007-2011-ci illər, gömrük sisteminin inkişaf etdirilməsinə dair "Dövlət Proqramı"nın həyata keçirilməsinin nəticələrinə görə dördüncü mərhələ kimi dəyərləndirilmişdir.

**Mövzunun öyrənilməsi səviyyəsi.** Azərbaycanın müstəqillik dövrünə qədərki tarixşünaslığımızda gömrük işinin təşəkkülü və inkişafı problemi diqqətdən kənarda qalmışdır. Bununla bərabər, gömrük işinin bir çox problemləri, o cümlədən gömrük işinin iqtisadi təhlükəsizliyin təmin edilməsində yeri və rolu, milli gömrük qanunvericiliyinin və gömrük-tarif siyasətinin formalaşması, ölkəmizin beynəlxalq gömrük münasibətlərinin fəal subyektinə çevrilməsi iqtisad, hüquq və humanitar elm sahələri üzrə elmi tədqiqat işlərinin mövzusu olmuşdur.

Tədqiqat işində istifadə olunan elmi ədəbiyyat əhatə etdiyi dövrə, fənlərarası sahələr üzrə (tarix, iqtisadiyyat, beynəlxalq münasibətlər, gömrük hüququ və s.) və xarici ölkələrdə aparılan tədqiqatlara görə təsnifləşdirilərək üç qrupa bölünmüşdür. Elmi ədəbiyyatın təhlili problemin əsas xüsusiyyətlərini ayırmağa imkan vermişdir.

Azərbaycanda gömrük işinin müstəqilliyə qədərki tarixini əks etdirən elmi əsərlər birinci qrupda nəzərdən keçirilmişdir. Yeddi cildlik "Azər-

baycan tarixi"nin V cildində gömrük nəzarəti və qaçaqmalçılıqla mübarizə barədə qeydlər verilmişdir.[1]

Azərbaycan gömrüyünün tarixinə həsr edilmiş kitablar sırasında F.Əsədov və A.Şəkərəliyevin "Azərbaycanın gömrük tarixi" adlı əsərində XIX yüzilliyin sonu – XX yüzilliyin başlanğıcında Şimalı Azərbaycanda çar Rusiyasına məxsus gömrükxanaların fəaliyyəti, bir fəsildə isə milli hökumətin gömrük siyasəti araşdırılır.[2]

Akademik Y.M.Mahmudovun baş redaktorluğu ilə çıxan iki cildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın 1-ci cildində xarici ticarət, gömrük işi və sərhəd mühafizəsi ilə bağlı məqalələrdə arxiv sənədlərinə əsaslanan qiymətli məlumatlar verilmişdir.[3]

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu ilə Azərbaycan Respublikası DGK-nın birgə əməkdaşlığının nəticəsi olaraq akademik Y.M.Mahmudovun baş redaktorluğu və ön sözü ilə dərc olunan "Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik" adlı topluda tarixşünaslığımızda ilk dəfə olaraq Y.M.Mahmudov, A.Ə.Əliyev, M.N.Mirzəyev, N.M.Vəlixanlı, V.Z.Piriyev, D.M.Əzimli, E.Q.Mirzəyeva, G.M.Seyidova, T.T.Mustafazadə, H.N.Həsənov, A.Ə.Paşayev, K.K.Şükürov, K.N.İsmayılov, H.V.İsakov, R.Ə.Quliyev və Ə.C.Hacızadənin həmmüəllifliyi ilə qədim dövrlərdən başlamış müasir dövrə qədər ölkəmizin gömrük tarixinin əhatəli icmalı verilmişdir.[4]

L.Ş.Babayevin dissertasiyasında[5] gömrük baxımından sərhəd mühafizəsinin təşkili sahəsində görülən işlər, o cümlədən müxtəlif siyasi partiyaların gömrük və sərhəd mühafizəsinin təşkilinə münasibəti və sərhəd-keçid məntəqələrinin təchizatı məsələləri araşdırılır. Gömrük nəzarəti orqanları ilə gömrük baxımından sərhəd mühafizəsi strukturlarının birgə fəaliyyəti, o cümlədən gənc dövlət üçün böyük iqtisadi təhlükə yaradan qaçaqmalçılığa qarşı mübarizə işində gömrük xidməti ilə sərhəd mühafizəsinin bilavasitə təmasda olduğu məsələlər təhlil olunur. K.N.İsmayılovun 1918-1920-ci illərdə siyasi partiyaların fəaliyyətinə həsr

---

[1] Azərbaycan tarixi. 7 cilddə, V c. Bakı: Elm, 2001, s.457

[2] Əsədov F., Şəkərəliyev A. Azərbaycanın gömrük tarixi. I hissə. Bakı: BDU nəşriyyatı, 2001

[3] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə, I c. Bakı: Lider nəşriyyatı, 2004, s.398

[4] Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Baki: "Elm", 2007

[5] Babayev L.Ş. AXC-nin sərhəd mühafizəsi tarixi (1918-1920-ci illər): Tarix elm. nam. ... dis. Bakı, 2005

olunan tədqiqat işinin bir fəslində iqtisadi vəziyyətin ağırlığını doğuran obyektiv və subyektiv səbəblərlə yanaşı Parlament müzakirələrində gömrük nəzarəti və xarici ticarətin tarif tənzimlənməsi ilə bağlı qanun layihələrinin siyasi partiyaların münasibəti təhlil olunur.[1] N.N.Məmmədzadənin dissertasiyasında Cümhuriyyətin iqtisadi siyasətinin formalaşmasında müxtəlif siyasi partiyaların mövqeyinə aydınlıq gətirilir, hökumətin sənaye istehsalı və ticarət sahəsində tədbirləri tədqiqatın ana xəttini təşkil edir.[2]

R.Ə.Quliyevin monoqrafiyasında tədqiq olunan problemlə bu və ya digər şəkildə əlaqəli olan əhəmiyyətli bir çox sənədlər elmi dövriyyəyə ilk dəfə daxil edilmişdir.[3]

Qeyd edilməlidir ki, Azərbaycan SSR-nin iqtisadi tarixi haqqında tədqiqatlarda gömrük quruculuğu məsələləri və gömrükxanaların fəaliyyəti yalnız qısa məlumatlarla qeyd edilib. C.Y.Rüstəmovanın tədqiqat işinin ikinci fəslində ingilis hərbi komandanlığının Azərbaycandan daşıdıqları neft məhsullarından gömrük rüsumu və aksizin tutulmaması iqtisadi inkişafa mənfi təsir göstərən amil kimi göstərilmişdir.[4]

Ş.D.Səlimovun Bakı neftinin beynəlxalq münasibətlərdə roluna həsr edilmiş doktorluq dissertasiyasında neftin ixracı və daşınması ilə əlaqədar danışıqlar, aksiz və gömrük rüsumunun ödənilməsi sahəsində yaranan ziddiyyətli məqamlar nəzərdən keçirilir.[5] N.Nəsibzadənin əsərində[6] digər məsələlərlə bərabər xarici ticarət əməliyyatlarına aid sənəd və materiallar da verilmişdir. T.M.Zeynalovanın tədqiqat işində 1920-1930-cu illərdə sovet dövlət quruculuğuna aid bir sıra məsələlərin açılmasına gömrük

[1] Исмаилов К.Н. Парламентская деятельность политических партий Азерайджана: Дис. … канд. истор. наук. Ин-т Истории им. А.А.Бакиханова. Баку, 1999

[2] Мамедзаде Н.Н. Роль политических партий в формировании экономического курса Азербайджанского государства 1918-1920 гг.: Дис. …канд. истор. наук. Ин-т Истории им. А.А.Бакиханова. Баку, 2004

[3] Quliyev R.Ə. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Bakı: "Turxan" NPB, Bakı, 2015

[4] Рустамова Дж.Я. Национальная буржуазия в период Азербайджанской Демократической Республики (Azərbaycan Xalq Cümhuriyyəti): Дис. …канд. истор. наук. Ин-т Истории АН Азербайджана. Баку: 2003

[5] Səlimov Ş.D. Beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələləri (1914-1922-ci illər): Tar. elm. dok. ... dis. Bakı, 2005

[6] Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər) Bakı: Elm, 1990

idarəçiliyinin təşkili ilə bağlı sənədlər cəlb edilməmişdir.[1] N.Ə.Əlizadənin dissertasiyasında 1941-1945-ci illər müharibəsində cəbhəyə canlı qüvvə və hərbi texnikanın daşınması, işğal rayonlarından əhalinin köçürülməsi və zavodların avadanlıqlarının təyinat yerinə çatdırılması sahəsində görülən işlər təhlil edilsə də, Bakı limanında daşımalara nəzarətin həyata keçiriməsi qeyd olunur.[2]

İkinci dünya müharibəsi illərində hərbi və qeyri-hərbi yüklərin bölüşdürülməsi və lend-lizlə bağlı daşımaların həyata keçirilməsinə həsr edilmiş əsərlərdə xüsusi əhəmiyyət kəsb edən Bakı və Culfa gömrükxanalarının fəaliyyəti, qaçaqmalçılıqla mübarizə məsələləri diqqətdən kənarda qalmışdır. Gömrük işi və xarici ticarətin təşkili məsələləri ümumi qeydlərlə verilmiş, gömrük quruculuğu məsələləri ayrıca təhlil obyekti olmamışdır. Halbuki gömrükxanaların fəaliyyətinə aid bir çox arxiv sənədlərinin məzmunu nəinki iqtisadi, eyni zamanda siyasi və hüquq tariximizin bir çox səhifələrini daha ətraflı işıqlandırmağa imkan verir. R.Ə.Quliyevin monoqrafiyasında qeyd edilən məsələlər 1920-1991-ci illəri əhatə etməklə işıqlandırılmışdır.[3]

M.İ.Abdullayevin tədqiqat işində 1960-1990-cı illərdə SSRİ-inTürkiyə ilə iqtisadi, elmi-texniki və mədəni əlaqələrində Azərbaycanın iştirakına aid materiallar təhlil edilsə də, ticarət əlaqələrinə aid gömrük sənədlərindən edilməmişdir.[4] M.Ə.Baxışovun dissertasiya işində Azərbaycan ərazisindəki gömrükxanaların fəaliyyəti haqqında yalnız qısa məlumatlar verilmişdir.[5] İ.X.Zeynalovun doktorluq dissertasiyasında[6] tədqiq edilən dövrün sosial-iqtisadi məsələləri, o cümlədən xarici iqtisadi-ticarət əlaqələri geniş planda və yeni konsepsiya əsasında öyrənilmiş lakin gömrük işi ilə bağlı məsələlər tədqiqatın əhatə dairəsindən kənarda qalmışdır. S.Səməndərovun ötən yüzilliyin 20-ci illərinin Azərbaycanın elmi mətbuatında gömrük

---

[1] Zeynalova T.M. Azərbaycanın milli dövlət quruculuğu tarixindən (1920-1930-cu illər): Tar. elm. nam. ... diss. AMEA Tarix İnstitutu. Bakı, 1996

[2] Əlizadə N.Ə. Azərbaycan dəmir yolu nəqliyyatı böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər): Tarix elm. nam. ... dis. Bakı, 1997

[3] Quliyev R.Ə. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi. Azərbaycan SSR sovet gömrük sistemi şəraitində (1920-1991). Bakı: “Turxan” NPB, Bakı, 2015

[4] Abdullayev M.İ. Sovet-Türkiyə iqtisadi, elmi-texniki və mədəni əlaqələrində Azərbaycanın iştirakı: Tarix elm. nam. .. dis. AMEA Tarix İnstitutu. Bakı, 1996

[5] Baxışov M.Ə. Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələri (70-80-ci illər). Tarix elm.nam ...dis. Bakı, 1992

[6] Zeynalov İ.X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər): Tarix elm. dok. ... dis. BDU. Bakı, 1999

nəzarətinin təşkili haqqında irəli sürülən mülahizələrin təhlil edildiyi məqaləsi bu sahədə ilk təşəbbüs kimi qeyd edilməlidir.[1]

İkinci qrup ədəbiyyata bilavasitə gömrük işinin siyasi, hüquqi, iqtisadi aspektlərini və tarixi inkişaf mərhələlərini əks etdirən və fənlərarası kontekstdə yazılmış elmi əsərlər daxil edilmişdir.

Müasir mərhələdə tarix, politologiya, hüquq və beynəlxalq iqtisadi münasibətlər üzrə aparılan bir sıra tədqiqatlarda ölkənin müasir xarici iqtisadi-ticarət əlaqələrinin ümumi vəziyyəti və inkişaf perspektivləri, gömrük siyasətinin ölkənin iqtisadi mənafeyi ilə uzlaşdırılması, gömrük qanunverciliyinin daha da təkmilləşdirilməsi, gömrük-tarif məsələlərinin tənzimlənməsi və gömrük infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq gömrük əməkdaşlığı məsələləri ilə bağlı problemlər geniş təhlil olunur.

AMEA Tarix İnstitutunda akademik Y.M.Mahmudovun elmi redaktorluğu ilə müasir konsepsiya əsasında yazılmış ikicildlik “Heydər Əliyev”[2] və beş kitabdan ibarət ikicildlik “Azərbaycan Respublikasının tarixi” adlı fundamental əsərlərdə müstəqillik illərində sosial-iqtisadi inkişafın kompleks məsələləri ilə yanaşı gömrük quruculuğu probleminin də öyrənilməsi xüsusi qeyd edilməlidir.[3]

Qeyd edilməlidir ki, A.M.Məhərrəmovun doktorluq dissertasiyasında [4] qloballaşma şəraitində Azərbaycan Respublikasının gömrük siyasətinin formalaşması və inkişaf perspektivləri təhlil olunur və düzgün olaraq qeyd olunur ki, bu sahədə iqtisadiyyatın bazis institutlarından hesab olunan gömrük xidmətinin rolu danılmazdır.

---

[1] Səməndərov S.S. XX əsrin 20-ci illərin əvvəllərində Azərbaycanda daxili və xarici ticarət, gömrük işinin təşkili ilə əlaqədar dəyərləndirmələr // Azərbaycanın vergi jurnalı, 2012, №2, s.131

[2] Heydər Əliyev. İki cilddə. I c. Bakı: “Turxan”, 2013, s.180-195; Heydər Əliyev. İki cilddə. II c. Bakı: “Turxan”, 2013, s.325-337

[3] Azərbaycan Respublikasının tarixi. İki cilddə. I c. Bakı: “Turxan”, 2016, s.321-333; Azərbaycan Respublikasının tarixi. İki cilddə. II c. Bakı: “Turxan”, 2016, s.105-133

[4] Məhərrəmov A.M. Qloballaşma şəraitində Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında gömrük siyasətinin formalaşması və inkişaf perspektivləri: İqt. elm. ...dok. dis. Bakı, 2010

Müstəqilliyin ilk illərində planlı təsərrüfatdan bazar iqtisadiyyatına keçid şəraitində xarici iqtisadi fəaliyyətin yenidən qurulmasında qarşıya çıxan problemlər, Azərbaycan dövlətinin gömrük siyasətinin milli gömrük sisteminin təşkili, hüquqi əsaslarının yaradılması, gömrük xidmətinin maddi-texniki bazasının inkişafı və kadr potensialı, beynəlxalq gömrük əməkdaşlığının əsas inkişaf istiqamətləri R.Ə.Quliyevin monoqrafiyasında tədqiq edilmişdir.[1]

Müstəqilliyin ilk illərində planlı təsərrüfatdan bazar iqtisadiyyatına keçid şəraitində xarici iqtisadi fəaliyyətin yenidən qurulmasında qarşıya çıxan problemlər, o cümlədən Azərbaycan dövlətinin gömrük siyasətinin işlənilib hazırlanması məsələləri M.R.Tağıyevin dissertasiyasında nəzərdən keçirilmişdir.[2]

Qeyd edilməlidir ki, K.C.Əlirzayevin xarici iqtisadi əlaqələrinin gömrük-tarif tənzimlənməsi probleminə həsr edilmiş əsərində ölkənin xarici iqtisadi əlaqələrini inkişaf dövrlərinə bölərkən, gömrük işinin inkişaf səviyyəsini və bu əlaqələrə təsirini nəzərə alması daha düzgün olardı.[3]

İ.V.İsakovun "Azərbaycan Respublikasının "Böyük İpək yolu"nun bərpasında iştirakı: 1991-2005-ci illər" adlı monoqrafiyasında milli gömrük xidmətinin bu istiqamətdə üzərinə düşən konkret vəzifələrə toxunulmuşdur.[4]

E.Y.İsmayılovun tədqiqatında gömrük siyasətinin ölkə sənayesinin strukturnda baş verən dəyişikliklərə və ixrac potensialına təsiri araşdırılır.[5]

N.M.Hümbətovun dissertasiyasında ölkəmizin xarici ticarət əlaqələrinin dövlət tənzimlənməsi sistemi və onun təkmilləşdirilməsi

---

[1] Quliyev R.Ə. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi. Azərbaycan Respublikasında gömrük sisteminin inkişafı (1991-2014). Bakı: "Turxan" NPB, Bakı, 2015

[2] Тагиев М.Р. Совершенствование экономических связей Азербайджана со странами СНГ в условиях становления рыночных отношений: Дис. …на соиск. канд. экон.- наук. Баку: 1996

[3] Əlirzayev K.C. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin gömrük-tarif tənzimlənməsi sistemi və onun təkmilləşdirilməsi problemləri: İqt. elm. nam. ... dis. Bakı, 2005

[4] İsakov İ.V. "Azərbaycan Respublikasının "Böyük İpək yolu"nun bərpasında iştirakı: 1991-2005-ci illər. Bakı: Şərq-Qərb, 2011

[5] Исмаилов Е.Я. Влияние таможенной политики на структуру промышленности Азербайджана: Дис. канд. экон. наук. Баку, 2007; Əliyev V.İ. Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin tənzimlənməsinin gömrük tariflərinin tətbiqi problemləri: İqt. elm. nam. dis. avtoref. ADİU. Bakı, 2005

istiqamətləri, [1] V.İ.Əliyevin əsərlərində keçid iqtisadiyyatı şəraitində ölkədə xarici ticarətin dövlət tənzimlənməsində normativ-hüquqi bazanın zəruri olması və gömrük-tarif məsələləri təhlil olunur.[2] İ.H.Yüzbaşıyevin tədqiqat işində Azərbaycanın MDB üzv ölkələrlə iqtisadi-ticarət əlaqələri statistik materiallar əsasında qiymətləndirilir.[3]

E.İ.Emir-İlyasovanın monoqrafiyasında xarici iqtisadi fəaliyyətin siyasi-hüquqi əsasları, gömrük nəzarətinin təkmilləşdirilməsi məsələləri araşdırılır.[4]

Prof. A.K.Ələsgərovun redaktorluğu ilə dərc olunan “Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər” adlı topluda gömrük işinin inkişafı problemləri nəzərdən keçirilmişdir.[5]

1995-2006-cı illərdə gömrük xidmətinə rəhbərlik etmiş K.F.Heydərovun əsərlərində Azərbaycanda müasir gömrük sisteminin təşkili, inkişaf xüsusiyyətləri və problemləri geniş təhlil olunur.[6]

Müasir dövrdə ölkəmizin gömrük işinin əsas inkişaf istiqamətlərini səciyyələndirən elmi, elmi-metodiki və informasiya xarakterli materiallar K.F.Heydərov, A.Ə.Əliyev, C.Q.Nuriyev, A.Ş.Şəkərəliyev və M.C.Atakişi-

[1] Hümbətov N.M. Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dövlət tənzimlənməsi sistemi və onun təkmilləşdirilməsi istiqamətləri. İqt. elm. nam. ... dis. ADİU. Bakı, 2007

[2] Əliyev V.İ. Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin tənzimlənməsinin gömrük tariflərinin tətbiqi problemləri: İqt. elm. nam. dis. avtoref. ADİU, Bakı, 200

[3] Yüzbaşıyev İ.H. Azərbaycanın GUAM ölkələri ilə xarici iqtisadi əlaqələrinin inkişafı və təkmilləşdirilməsi: İqt. elm. nam. ... diss. avtoref. Bakı, 2009

[4] Эмир-Илясова Э.И. Регулирование внешнеэкономических связей Азербайджанской Республики в условиях интеграции в мировую экономику. Баку: “Элм”, 2006

[5] Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər. Bakı: “Avropa” nəşriyyatı, 2015

[6] Heydərov K.F. Azərbaycanın gömrük xidməti. Bakı: Azərnəşr, 1998; Yenə onun. Gömrük işinin əsasları: gömrük işinin təşkili və texnologiyası. 4 cilddə. I c. Bakı: Azərnəşr, 1998; Yenə onun. Gömrük işinin əsasları: gömrük orqanlarının iqtisadi fəaliyyəti. 4 cilddə. II c. Bakı: Azərnəşr, 1999; Yenə onun, Gömrük işinin əsasları: gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti. 4 cilddə. III c. Bakı: Azərnəşr, 1999; Yenə onun. Gömrük işinin əsasları: gömrük işinin idarə edilməsi və inkişafı. 4 cilddə. IV c. Bakı: Azərnəşr, 2000; Yenə onun, Heydər Əliyev və Azərbaycanda gömrük sisteminin təkamülü (iqtisadi təhlükəsizlik konsepsiyası üzrə). Bakı: Ozan nəşriyyatı, 2000; Yenə onun. Azərbaycan gömrüyü sabit inkişaf yolunda. Bakı: Ozan, 2005

yevin həmmüəllifliyi ilə yazılmış kitab və dərsliklər, dərc olunan informasiya-hesabat xarakterli xüsusi tədqiqatlar qeyd edilməlidir. DGK-nın yaradılmasının 25 illiyinə həsr olunan kitabda milli gömrük xidmətinin tarixinin müstəqillik dövrünün xronologiyası verilmişdir.[1]

C.Q.Həsənovun tədqiqatında Azərbaycan dövlətinin xarici iqtisadi fəaliyyətinin dövlət tənzimlənməsi sistemində gömrük xidmətinin rolu, bu sahədə beynəlxalq təcrübənin əhəmiyyəti,[2] S.Ə.Qaralovun tədqiqatında müasir gömrük sisteminin inkişaf istiqamətləri və idarəetmə mexanizminin təkmilləşdirilməsi yolları,[3] S.Ş.Bağırovun dissertasiyasında Azərbaycan Respublikasında gömrük nəzarətinin səmərəli təşkili və metodologiyası problemləri təhlil olunur.[4] E.Z.Eyvazovun tədqiqat işində gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın əsas məzmununu təşkil edən hüquqi əməkdaşlığın başlıca xüsusiyyətləri təhlil olunmuşdur.[5]

Üçüncü qrup ədəbiyyata tədqiq edilən mövzunun nəzəri-metodoloji baxımdan açılmasında dəyər kəsb edən rus, sovet və MDB üzvü ölkələri alimlərinin gömrük işi ilə bağlı tarixi, fəlsəfi, iqtisadi və hüquqi kontekstdə

---

[1] Heydərov K.F., İbrahimov T.T. Gömrük işi – iqtisadi suverenlik və təhlükəsizlik. Bakı: Səda, 1999; Heydərov K.F., Əzimov A.H. Gömrük hüququ. Bakı: Hərbi nəşriyyat, 2001; Heydərov K.F., Əliyev A.Ə., Nuriyev C.Q., Mehdiyev S.M. Gömrük rəsmiləşdirilməsi. Bakı: Qanun, 2006; Nuriyev C.Q. Azərbaycanın gömrük tarixi. Dərslik. Bakı: Qarabağ, 2007; Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C. Gömrük işinin təşkili və idarə olunması: Ali məktəblər üçün dərslik. Bakı: Apostrof Çap Evi, 2012; Şəkərəliyev A.S., Nuriyev C.Q., Əliyev A.Ə. Gömrük işinin təşkili və idarə edilməsi: Dərslik. Bakı: Qanun, 2004; Azərbaycan gömrüyünün tarixi: xronologiya. Azərbaycan Respublikası DGK-nın Mətbuat Xidməti. Bakı, 2017; Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: İqtisad Universiteti, 2009; Əliyev A.Ə. Azərbaycanın iqtisadi siyasəti (Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri). Bakı: Qanun, 2003; Yenə onun, Gömrük işi və dünya iqtisadiyyatının inkişafı. Bakı: Çaşıoğlu, 2003; Yenə onun, İnformasiya cəmiyyətində iqtisadiyyat. AMEA Beynəlxalq Münasibətlər İnstitutu, Dirçəliş XXI əsr, 2006, №100-101

[2] Гасанов Дж.Г. Таможенная служба в системе государственного регулирования внешнеэкономической деятельности Азербайджанской Республики: Дис. …канд. экон. наук. ГТК РФ. Москва, 1998

[3] Гаралов С.А. Совершенствование управления таможенной службы Азербайджана с учетом факторов риска: Дис. … канд. экон. наук. Таможенная Академия РФ. Москва, 2004

[4] Багиров Ш.С. Совершенствование организации таможенного контроля в Азербайджанской Республике: Дис. … канд. экон. наук. Москва: 2004

[5] Eyvazov İ.Z. Azərbaycan Respublikasının gömrük işi sferasında əməkdaşlığının beynəlxalq-hüquqi formaları: Hüquq elm. nam. ... dis. BDU. Bakı, 2007

apardıqları elmi axtarışlar daxil edilmişdir. Müəllif rus və sovet tarixşünaslığında, xüsusilə 1991-ci ildən sonra Rusiyada dərc edilən gömrük işi ilə bağlı xüsusi elmi ədəbiyyatdan faydalanmışdır.

Gömrük işinin dövlətçilik tarixində yeri və rolu, iqtisadiyyata gömrük-tarif siyasətinin təsiri problemləri XIX-XXI yüzilliyin başlanğıcında tədqiqatçıların müraciət etdiyi mövzulardan olmuşdur. Gömrük işinin inkişaf xüsusiyyətlərini öyrənən müəlliflər bu nəticəyə gəlmişlər ki, tarix boyu gömrük işinin nəticələri dövlətin geosiyasi mövqeyindən, ölkədəki daxili vəziyyətdən: iqtisadi, hərbi və hətta kriminal durumdan asılı olmuşdur.

MDB üzvü ölkələrində, o cümlədən Rusiya Federasiyasında gömrük işinin tarixi, gömrük siyasətinin mahiyyəti, müasir dövrdə gömrük işinin ictimai-siyasi, hüquqi, iqtisadi və sosial-psixoloji problemləri sahəsində tədqiqatlar aparılır.

Rusiya tarixşünaslığında gömrük işinin inkişafının tarixi, sosial-iqtisadi, siyasi və hüquqi məsələləri N.M.Blinov, N.V.Buniç, A.İ.Potyayev, V.N.Qabriçidze, D.M.Pojelayev, İ.M.Kulişer, V.Vitçevski, L.N.Markov, Y.Q.Kislovski, V.N.Krixunov, İ.İ.Muşket, V.V.Pilyayeva, V.V.Pokrovska-ya və digər müəlliflərin əsərlərində işıqlandırılmışdır.[1]

P.İ.Dyominin dissertasiyasında gömrük siyasəti siyasi tədqiqatın obyekti kimi araşdırılır.[2] E.S.Çistov[3] problemə iqtisadi təhlükəsizlik,

---

[1] Блинов Н.М. Таможенная политика России X-XX вв. Москва: Русина, 1997; Бунич Н. Таможенное дело в первые годы советской власти // Таможенные ведомости, ГТК РФ, 1995, № 4-5, с. 34-47; Габричидзе Б.Н., Полежаев Д.М. Становление и развитие таможенной службы в Советском государстве (1917-1991 гг.) // Государство и право, 1992, № 10, с.32-38; Кисловский Ю.Г. История таможни государства Российского. Москва: ИПО Автор, 1995; Yenə onun, История таможенного дела и таможенной политики России: Учебник для вузов. Москва: Русина-пресс, 2004; Покровская В.В. Таможенное дело. Учебник. М.: Издательство Юрайт, 2011; Крихунов В.Н. Таможенная политика России и ее экономическая эффективность. 1877-1914 г. Москва: Русина, 1999; Марков Л.Н. Очерки по истории таможенной службы. Иркутск: Изд-во Иркут.ун-та, 1987; Мушкет И.И. Таможенная служба Санкт-Петербурга. 1703-2003: СПб., Сатис, 2003; Пиляева В.В. История таможенного дела и таможенной политики России. Москва: ООО Балт Рус, 2007

[2] Демин П.И. Таможенная политика России как объект политического исследования: Дис. ... канд. экон. наук. Санкт-Петербург, 1998

[3] Чистов Е.С. Проблемы государственной таможенной политики в сфере национальной безопасности России. Дис. канд. полит. наук. Москва: 2005

V.A.Pesterevin[1] milli təhlükəsizlik prizmasından yanaşması diqqəti cəlb edir. İ.N.Poqibanın[2] əsərində gömrük siyasətinin milli təhlükəsizliyin təmin edilməsi aləti olması milli təhlükəsizliyə təhdidlərin neytrallaşdırılması vasitələri araşdırılır. Müasir şəraitdə gömrük siyasənin cəmiyyətin sosial-iqtisadi həyatına təsiri məsələri siyasi və sosial-fəlsəfi kontekstdən R.S.Volkovun[3] və Y.A.Povlovskayanın tədqiqat işlərində təhlil olunur.[4]

O.Ş.Daştamirovun əsərində qloballaşmanın doğurduğu yeni siyasi-iqtisadi məkanda dövlətin gömrük siyasətinin yenidən, dərin elmi təhlil və yeni yanaşmalar əsasında işlənilib hazırlanmasının zəruriliyi vurğulanır.[5]

D.İ.Borisovanın araşdırmalarında sovet Rusiyası və keçmiş SSRİ-nin iqtisadi-ticarət və gömrük siyasətində Azərbaycana xüsusi əhəmiyyət verildiyi faktlarla təsdiq olunur.[6] Y.A.Napso[7] və Y.M.Smirnovanın[8] tədqiqatlarında Rusiya Federasiyasında ilk dəfə olaraq namizədlik dissertasiyası çərçivəsində gömrük xidməti orqanlarının təşkili və fəaliyyətinin əsas

---

[1] Пестерев В.А. “Таможенная политика в системе обеспечения национальной безопасности Российской Федерации: социально-философский анализ”: Дис. ...канд. филос. наук. Московский филиал ЛГУ им. А.С.Пушкина. Москва, 2007

[2] Погиба И.Н. Таможенная политика как инструмент обеспечения национальной безопасности Российской Федерации: социально-философский анализ: Дис. ...канд.филос. наук. Академия ФТК РФ. Москва, 2002

[3] Волков Р.С. Институциональная трансформация таможенной службы России: состояние и динамика: Дис. канд. социол. наук. МГУ им. М.В.Ломоносова. Москва, 2010

[4] Павловская Ю.А. Исторический опыт разработки и реализации государственной таможенной политики Российской Федерации (1991-1999 гг.): Дис. …канд. ...истор. наук: Москва: 2009

[5] Даштамиров О.Ш. Таможенная политика Российской Федерации в условиях глобализации: Дис. …канд. полит. наук. МГУ им. М.В.Ломоносова. Москва, 2008

[6] Борисова И.Д. Правовое обеспечение национальных государственных интересов Советской России и СССР в Центрально Азиатском и Кавказском регионах в 1917-1929 гг. Историко-правовое исследование: Дис. док. юр. Наук. Федеральная Служба Исполнений Наказаний, Владимир, 2006

[7] Напсо Ю.А. Таможенная политика Российской Федерации в 1990-е гг.: Дис. ... канд. истор. наук. Ин.-т МПЭ им. А.С.Грибоедова. Москва, 2007

[8] Смирнова Е.М. Становление и развитие таможенной политики России в период с XIII по XX века. Историко-правовой аспект: Дис. …док. юрид. наук. Санкт-Петербург, 2007

prinsipləri təhlil edilir, gömrük işi və qanunvericiliyinin formalaşması sahəsində tarixi təcrübənin əsas xüsusiyyətləri açıqlanır.

Azərbaycandan fərqli olaraq, postsovet məkanında müstəqilliyə qədər gömrük işi ənənəsinə malik olmayan və bu xidmətin yeni formalaşdığı Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Qırğız respublikalarında da elmi tədqiqatlar aparılmaqdadır. N.S.Attokurovanın doktorluq dissertasiyasında beynəlxalq inteqrasiya şəraitində xarici iqtisadi əlaqələrinin inkişaf problemləri araşdırılır.[1] E.D.İmanəliyevin tədqiqatında gömrük xidmətinin təşkili, milli gömrük qanunvericiliyinin formalaşması və gömrük nəzarətinin təşkili araşdırılır. Əsərdə gömrük nəzarətinin xarici iqtisadi fəaliyyətin nizamlanmasında rolu,[2] N.T.Şeripovun tədqiqat işində gömrük orqanlarının hüquqi bazasının formalaşması, hüquq-mühafizə və qaçaqmalçılığa qarşı mübarizə tarixi-hüquqi baxımdan təhlil olunur.[3] K.H.Hasanovun dissertasiyasının tədqiq obyektini müstəqil Tacikistanda hüquqi, demokratik dövlət quruculuğu prosesində gömrük xidməti orqanlarının təşkilati-hüquqi fəaliyyətinin əsaslarının yaradılması və inkişafı tarixi təşkil edir.[4]

Qeyd edilməlidir ki, Ukrayna və Belorus alimlərinin[5] bu sahədə apardıqları tədqiqatlar ölkəmizdə gömrük işinin müasir inkişaf problemləri və istiqamətləri üzrə müqayisəli təhlillər aparmağa, Azərbaycanla gömrük işi sahəsində qarşılıqlı münasibətlərini daha ətraflı öyrənməyə yardım edir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyanın mənbə bazasını çoxsaylı elmi ədəbiyyat, informasiya xarakterli materiallar və arxiv sənədləri təşkil edir. Problemin tədqiqi zamanı başlıca olaraq aşağıdakı mənbələrdən istifadə edilmişdir: 1) arxiv sənədləri; 2) gömrük işi və xarici iqtisadi əlaqə-

---

[1] Аттокурова Н.С. Проблемы развития внешнеэкономических связей Кыргызской республики в условиях международной интеграции: Автореф. дис. …док. экон. наук. КНУ. Бишкек: 2009

[2] Иманалиев Э.Д. Создание и деятельность таможенной службы Кыргызской Республики: 1991-1999 гг.: Дис. …канд. истор. наук. Москва, 1999, 224 с.

[3] Шерипов Н.Т. Становление и развитие таможенных органов Кыргызской Республики. Историко-правовой аспект: Дис. …канд. юрид. - наук. Екатеринбург, 2003

[4] Хасанов К.Х. История становления и развития организационно-правовых основ деятельности таможенных органов Республики Таджикистан: Дис. …канд. истор. - наук. Душанбе: 2009

[5] Государственная таможенная служба Республики Беларусь. История и современность. Минск: Белтаможиздат, 2006; Олищук Г. О. Актуальные проблемы реализации таможенной политики Украины и пути их решения // Стратегические приоритеты, Киев, 2007, № 3

lərin tənzimlənməsi ilə bağlı qanunlar və digər hüquqi aktlar; 3) nəşr olunmuş statistik məlumatlar; 4) tədqiqat dövrünü əhatə edən mətbu materiallar; 5) elektron resurslar.

Gömrük işi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin qəbul etdiyi müxtəlif sərəncamlar, fərmanlar, proqramlar, Milli Məclisin və Azərbaycan Hökumətinin 1991-2011-ci illərdə gömrük nəzarətinin təkmilləşdirilməsi ilə bağlı qəbul etdiyi hüquqi sənədlər də bu mənbələr sırasına daxildir. Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA)[1] AXC Parlamenti (fond 895), AXC Ticarət, Sənaye və Ərzaq Nazirliyi (fond 24), AXC Maliyyə Nazirliyi (fond 84), AXC-nin Gürcüstandakı Diplomatik Nümayəndəliyi (fond 897), Azərbaycan SSR gömrükxanaları və gömrük məntəqələri (fond 363), Azərbaycan SSR Nazirlər Soveti (fond 411), Maliyyə Komissarlığı (fond 85), Dəmir yolları idarəsi (fond 90), Azərbaycan SSR Ali Xalq Təsərrüfat Şurası (fond 130), Azərbaycan SSR Ticarət Palatası (fond 710), Azərbaycan SSR Mərkəzi Statistika İdarəsi (fond 2511), SSRİ Nazirlər Soveti yanında Azərbaycan SSR-in Daimi Nümayəndəliyi (fond 3034), Azərbaycan SSR Dövlət Plan Komissiyasının (fond 796) fondlarının sənədlərindən istifadə edilmişdir.

ARDA-nın Bakı filialının[2] və ARDTA-nın fondlarında[3] gömrük işi ilə bağlı bir çox sənədlər ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin (ARPİİSSA)[4] 1 saylı fondunda saxlanılan Azərbaycan KP MK-nın Bürosunun Heydər Əliyevin imzası ilə qəbul edilən sənədlər gömrük işi

---

[1] ARDA: F.24, siy.1, iş 6, 12, 18, 41, 46, 57, 74, 90, 92, 103, 169, 189, 197-199, 215, 248, 300, 320, 324, 411, 424; F.84, siy.1, iş 23, 34, 46, 50, 57, 60, 76, 85, 215, 220, 226, 232, 236, 239, 242, 253, 263, 265, 271, 272, 331, 344, 356, 363, 367, 369, 375, 380, 384, 388, 389, 892; F.85, siy.3, iş 155, 160, 164, 169; F.90, siy.2, iş 3, siy.1, iş 44, siy.3, iş 1, 2, 69; F.130, siy.1, iş 68; F.363, siy.1, iş 171, 186, 738, 756, 757, 762, 764, 777, 837, 839, siy. 3, iş 60, siy.10, iş 286; f.411, siy.1, iş 424, siy.3, iş 27, siy.4, iş 49, 127, 283, siy.5, iş 338, 629, siy.12, iş 201; f.710, siy.6, iş 9, 321; f.796, siy1, iş 9; f.895, siy.2, iş 7, siy.3, iş 58, 61, 63, 102, 116, 144, 148, 171, 226, 251, 271, 306, 310; f.897, siy.1, iş 2, 5, 20, 33, 38, 41; f.970, siy.1, iş 6, 69, 98; f.2511, siy.1, iş 103, siy. 5$^{s}$, iş 18, 57; f.3034, siy.1, iş 508, 519, 503, 522

[2] ARDA-nın Bakı filialı, f.126, siy.1$^{s}$, iş 2, 14, 18, 19, 20, 24, 26, 38, 62, 77, 126; siy.2, iş 3, 6, 31, 32, 68, 70

[3] ARDTA: F.202, siy.1, iş 10, 95: F.376, siy. 1, iş 363, 375

[4] ARPİİSSA: F.1, siy. 57, iş 140, siy.58, iş 196, siy.59, iş 150, siy.60, iş 28, 31, 57, 59, siy. 61, iş 59, siy.64, iş 134, siy. 66, iş 177, siy. 68, iş 62, siy.83, iş 202, siy.85, iş 53

haqqında qiymətli mənbələr qrupuna aiddir. Tədqiqat işində Naxçıvan MR Dövlət Arxivində,[1] həmçinin Azərbaycan Respublikası DGK-nın cari arxivində saxlanılan materiallardan istifadə edilmişdir.[2]

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi 1991-2011-ci illər xronoloji çərçivəsi daxilində dövlət quruculuğunun mühüm tərkib hissəsi sayılan gömrük işinin təşəkkül tapması və inkişafı prosesini ətraflı təhlilini aparmaq, tədqiq olunan problemlə bu və ya digər şəkildə əlaqəli olan əhəmiyyətli materialları elmi dövriyyəyə daxil etmək, Azərbaycan Respublikasının gömrük siyasətinin elmi araşdırılmasına nail olmaqdır.

Dissertasiyada qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– Azərbaycan dövlətçiliyi tarixində zəngin tarixi ənənələrə malik yerli gömrükxanaların təcrübəsini ümumiləşdirmək, Azərbaycan Xalq Cümhuriyyətinin gömrük işinin təşkili, gömrük qanunvericiliyinin yaradılması və qaçaqmalçılığa qarşı mübarizə sahəsində fəaliyyətini dəyərləndirmək;

– 1920-1991-ci illərdə Bakı gömrükxanasının və cənub sərhədlərimizdəki gömrükxanalarının fəaliyyətinə nəzər salmaq, eyni zamanda Azərbaycan SSR-nin xarici iqtisadi-ticarət əlaqələrinin inkişafına sovet gömrük-tarif qaydaları ilə süni əngəllər yaradan sovet gömrük sisteminin xalqımızın milli mənafeyi ilə qətiyyən uzlaşmadığını göstərmək;

– müstəqilliyin ilk illərində (1991-1993-cü illər) xarici ticarət əlaqələrinə və gömrük işinin inkişafına mənfi təsir edən obyektiv və subyektiv faktorları müəyyənləşdirmək və gömrük xidmətinin təşkilində yol verilən nöqsanların səbəb və nəticələrini təhlil etmək;

– Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müasir gömrük sisteminin formalaşmasına yönəlmiş möhtəşəm dövlətçilik fəaliyyətini, gömrük siyasətinin iqtisadi, təşkilati və hüquqi mexanizmlərinin işlənilib hazırlanmasına istiqamət verən tarixi rolunu açıqlamaq;

– müstəqil gömrük sisteminin təşkili və möhkəmləndirilməsi prosesini izləmək, ölkəmizin gömrük quruculuğu təcrübəsini təhlil etmək və gömrük sisteminin ayrı-ayrı inkişaf mərhələlərinin əsas xüsusiyyətlərini müəyyənləşdirmək;

– milli gömrük sisteminin qanunvericilik bazasının formalaşdırılması və daha da təkmilləşdirilməsi sahəsində görülən işləri ətraflı təhlil etmək;

---

[1] NMRDA: F.2, siy.1, iş 6,10

[2] AR DGK-nın Cari Arxivi, 1998-2011-ci illər üzrə kollegiya iclaslarının materialları

– Azərbaycan dövlətinin yürütdüyü gömrük siyasətinin prioritet istiqamətlərini, məqsəd və prinsiplərini təhlil etmək, xarici ticarət əlaqələrin gömrük tənzimlənməsinin sosial-iqtisadi inkişafın mühüm faktorlarından biri olduğunu əsaslandırmaq;

– ölkənin iqtisadi təhlükəsizliyinə zərər vuran gömrük hüquqpozmaların, qaçaqmalçılıq cinayətlərinin aşkar olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlərin, həmçinin narkotik maddələrin qeyri-qanuni daşınmasına qarşı mübarizənin nəticələrini üzə çıxarmaq;

– Azərbaycan Respublikasının beynəlxalq gömrük münasibətlərinin fəal iştirakçısı olmasını, tərəfdaş ölkələrin gömrük orqanları ilə imzalanan ikitərəfli sazişlər əsasında gömrük nəzarətinin normativ-hüquqi sənədlərinin hazırlanması sahəsində aparılan təcrübə və informasiya mübadiləsini dəyərləndirmək;

– gömrük xidmətinin digər ölkələrin gömrük orqanları və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərini, o cümlədən BMT-nin İnkişaf Proqramı, DDT, DGT, GUAM kimi beynəlxalq təşkilatlarla və MDB üzv ölkələrinin gömrük orqanları ilə gömrük nəzarətinin hüquqi tənzimlənməsi və xidmətin maddi-texniki resursların müasirləşdirilməsi sahəsində görülən işləri təhlil etmək;

– Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının gömrük quruculuğu sahəsində təcrübəsini təhlil etmək;

– gömrük xidmətinin beynəlxalq səviyyədə təşkil olunmuş toplantılara cəlb olunması və beynəlxalq tədbirlərə ev sahibliyi etməsinə, beynəlxalq gömrük münasibətlərinin əsas aktorlarından biri olmasına obyektiv qiymət vermək, həmçinin ölkəmizin Avrasiya Gömrük İttifaqına qoşulmasının milli maraqlarımızla ziddiyyət təşkil etməsinə aydınlıq gətirmək;

– gömrük təşkilatının xalqımızın mədəni və tarixi-arxeoloji irsinin qorunması və təbliği sahəsində fəaliyyətini açıqlamaq;

– müasir dövrdə gömrük sisteminin inkişaf perspektivlərini nəzərdən keçirmək, ölkə vətəndaşlarına, xarici iqtisadi fəaliyyət iştirakçılarına və xarici ölkə vətəndaşlarına göstərilən gömrük xidmətinin səviyyəsinin daha da təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq.

*Tədqiqatın obyekti* Azərbaycan Respublikasının gömrük işi sahəsində fəaliyyətidir. *Tədqiqat işinin predmeti* Azərbaycan Respublikasında gömrük işinin təşəkkülü, əsas xüsusiyyətləri və inkişaf meyllərinin siyasi-iqtisadi aspektləridir. Milli gömrük işi və gömrük siyasətinin inkişaf tarixinin əsas elementləri aşağıdakılar təşkil edir: a) gömrük işi və gömrük siyasəti tarixinin əsas məzmunu; b) gömrük işinin tarixi boyu formalaşan

əsas prinsipləri və xüsusiyyətləri; c) gömrük işi və gömrük siyasətinin inkişafına təsir edən hüquqi aktlar; d) gömrük işi sahəsi üzrə formalaşan yeni kateqoriya və terminlər sistemi.

**Dissertasiya işinin metodoloji əsası.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gömrük işinin təkmilləşdirilməsi ilə bağlı irəli sürdükləri konseptual müddəalar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisin və Nazirlər Kabinetinin qərarları, həmçinin gömrük sisteminin müxtəlif məsələlərinin təhlil olunduğu fundamental elmi əsərlər təşkil edir.

Dissertasiya işində tarixi hadisə və faktlara konkret və obyektiv yanaşma, elmi müqayisəli təhlil, sistemli analiz və statistik təhlil üsulundan istifadə edilmişdir. Problemlə bağlı materialların və sənədlərin təhlilində tarixilik prinsipi gözlənilmiş, hadisələrə yalnız həmin dövrün xüsusiyyətləri nəzərə alınmaqla deyil, həm də müasir ölçülərlə qiymət verilmişdir. Alınan nəticələr istinad edilən mənbələrə, fakt və rəqəmlərə tənqidi yanaşmaqla və digər mənbələrlə müqayisə edilməklə təhlil edilmişdir. Gömrük işi sahəsində qəbul edilən qanunvericilik aktları, imzalanan ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələr nəzərdən keçirilmişdir. Azərbaycanın müasir gömrük xidmətinin formalaşmasında mühüm xidmətləri olmuş K.F.Heydərovun və digər müəlliflərin gömrük işinin nəzəri əsasları haqqında problemə yanaşma prinsipləri nəzərə alınmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Zəngin tarixi ənənələrə söykənən gömrük xidmətinin müstəqillik dövrünə aid spesifik xüsusiyyətlərinin öyrənilməsi ölkəmizin sosial-iqtisadi inkişafında dövlət idarəçiliyinin bu formasının idarəetmə mexanizmində tutduğu yeri və ictimai münasibətlərə təsir dairəsini müəyyən etməyə imkan verir. Tədqiqat işi milli gömrük sisteminin davamlı inkişafına yönəlmiş islahatların nəticələri nəzərə alınmaqla yerinə yetirilmişdir.

Tədqiqatın başlıca elmi yeniliyi aşağıdakılardır:

– tədqiqat işində gömrük işinin təşkili və inkişafına aid geniş bir tarixi dövrü əhatə edən çoxsaylı sənəd və materialların əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə cəlb edilmiş, AXC, Azərbaycan SSR dövrünün gömrük tarixi təhlil olunmuş və gömrük quruculuğu sahəsində tarixi ənənələrin varisliyi məsələsi önə çəkilmişdir;

– ümummilli lider Heydər Əliyevin milli gömrük sisteminin təşkili və inkişaf etdirilməsi sahəsində nəhəng təşkilatçılıq fəaliyyəti, ölkəmizin iqtisadi təhlükəsizliyini şərtləndirən qiymətli tövsiyələri, həmçinin bu sahənin inkişafına istiqamət verən qərarları təhlil edilərək dəyərləndirilmişdir;

– Azərbaycan dövlətinin iqtisadi siyasət strategiyasının gömrük siyasəti ilə üzvi bağlılığı, davamlı iqtisadi inkişaf şəraitində yürüdülən çevik gömrük siyasətinin nəticələri və mahiyyəti açıqlanmışdır;

– tarixşünaslığımızda ilk dəfə olaraq milli gömrük qanunvericiliyinin formalaşdırılması, gömrük təşkilatının hüquqi-normativ qaydaların yaradılması və inkişaf etdirilməsi sahəsində fəaliyyəti təhlil olunaraq ümumiləşdirilmişdir;

– dövlətin yürütdüyü gömrük siyasətinin xarici iqtisadi-ticarət fəaliyyətin dinamikasına, idxal-ixrac əməliyyatlarının nəticələrinə təsiri təhlil edilərək ölkənin ixrac potensialı haqqında dolğun təsəvvür yaradılmışdır;

– gömrük xidmətinin iqtisadi təhlükəsizliyin təmin edilməsi və dövlət büdcəsi gəlirlərinin artırılmasında rolu açıqlanmış, qaçaqmalçılıq halları və gömrük qaydalarının pozulmasına qarşı keçirilən profilaktik tədbirlərin gömrük xidmətinin fəaliyyətinin nəticələrinə təsiri qiymətləndirilmişdir;

– Azərbaycan dövlətinin gömrük işi sahəsində həyata keçirdiyi islahatların nəticələri, o cümlədən idarəetmə strukturu, kadr potensialı və maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən işlər ətraflı təhlil olunmuşdur;

– xarici ölkələrin gömrük orqanları və beynəlxalq təşkilatlarla gömrük əməkdaşlığının inkişaf etdirilməsi sahəsində aparılan işlərin nəticələri, beynəlxalq gömrük münasibətlərinin gömrük işinin inkişafına təsiri dəyərləndirilmişdir;

– ilk dəfə olaraq, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-də müasir gömrük sisteminin yaradılması və inkişafı prosesi izlənilmişdir;

– ilk dəfə olaraq, milli gömrük işinin inkişaf istiqamətləri tarix, iqtisadiyyat, hüquq, beynəlxalq münasibətlər və digər elm sahələri üzrə aparılan tədqiqatlara əsaslanmaqla fənlərarası kontekstdə araşdırılmışdır;

– müasir tarixşünaslığımızda "gömrük işi" kateqoriyası tarix elminin tədqiqat obyekti kimi seçilmiş, gömrük işinin mahiyyətini səciyyələndirən termin və ifadələr elmi dövriyyəyə daxil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrinə əsaslanmaqla səmərəli fəaliyyəti təmin edə biləcək zəruri tövsiyə və təkliflər hazırlanmışdır. Dissertasiyada gömrük işinin özünəməxsus xüsusiyyətləri ilə bağlı nəzəri fikirlər inkişaf etdirilmiş, müasir geosiyasi şəraitdə gömrük nəzarəti sisteminin qorunub saxlanılmasının və inkişaf etdirilməsinin mühüm siyasi-iqtisadi əhəmiyyət daşıması göstərilmişdir. Gömrük işinin inkişafının aşağıdakı əsas xüsusiyyətləri: a) gömrük işinin əsas məzmununu dövlətin yürütdüyü gömrük siyasətinin əsas mahiyyətini təşkil

etməsi; b) gömrük rejiminin və gömrük nəzarətinin reallaşdırılması prinsiplərinin geosiyasi vəziyyətdən və ölkənin daxili iqtisadi-maliyyə durumundan asılı olaraq dəyişkən olması nəzəri cəhətdən əsaslandırılmışdır.

Dissertasiyanın materiallarından:

– müasir şəraitdə Azərbaycan dövlətinin çevik və düşünülmüş gömrük siyasətinin işlənilib hazırlanmasında;

– xarici iqtisadi əlaqələrlə məşğul olan və ya bu sahəyə rəhbərlik edən təşkilatların gündəlik fəaliyyətlərində;

– Azərbaycanın iqtisadi tarixi, xarici ticarət və gömrük münasibətlərinə dair elmi əsərlərin yazılmasında;

– dərslik və mühazirə mətnlərinin hazırlanmasında, ali məktəblərdə “Tarix”, “Gömrük işi”, “İqtisadiyyat”, “Beynəlxalq iqtisadi münasibətlər” ixtisasları üzrə xüsusi kursların keçirilməsində;

– Azərbaycanın gömrük işi tarixinə dair ensiklopedik nəşrin tərtib olunmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycan Respublikasının müasir tarixi” şöbəsində müzakirə olunmuş və müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya işinin əsas müddəaları Naxçıvan (2007), Bakı (2014, 2015), Moskva (2013, 2014) və Çikaqoda keçirilən (2013) beynəlxalq konfranslarda aprobasiya edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işinin strukturu qarşıya qoyulan məsələlərin həllinə uyğun olaraq tərtib edilmişdir. Dissertasiya giriş, on altı yarımfəsilə bölünmüş beş fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənilməsi məsələləri göstərilir, tədqiqat işinin əsas məqsədi, vəzifələri və nəzəri-metodoloji əsasları müəyyənləşdirilir.

**“Gömrük işi milli dövlət quruculuğu tarixində”** adlanan birinci fəsil dörd yarımfəsildən ibarətdir. Fəslin **“Azərbaycanda gömrük işinin tarixi haqqında”** adlı birinci yarımfəslində göstərilir ki, Azərbaycan dövlətçiliyində gömrük işi ölkəmizin iqtisadi həyatında ta qədim dövrdən həlledici rol oynamışdır. Ərəbdilli mənbələrdə ölkəmizin gömrük məntəqələri haqqında məlumatlar vardır. Orta əsr müəlliflərinə istinad etməklə Ə.Ə.Əlizadə, M.X.Şərifli, S.Aşurbəyli, M.X.Heydərov, S.M.Onullahi, V.Z.Piriyev və

b. tədqiqatçılar əsərlərində Azərbaycanın orta əsr dövründə ticarət əlaqələri, ticarət yolları və gömrükxanalar haqqında yazmışlar.[1]

Osmanlı gömrük sənədlərində Azərbaycanda gömrük rüsumunun təyin edilməsi qaydaları haqqında da məlumatlar vardır.[2] Rus dövləti Azərbaycanla, xüsusilə Şamaxı tacirləri ilə ticarət əlaqələrinin inkişafında maraqlı idi.[3]

Şamaxı, Bakı, Dərbənd və Gilandan olan azərbaycanlı tacirlərin malları Həştərxan gömrüyündə[4] ətraflı yoxlanılırdı. Qubalı Fətəli xan Rusiya ilə normal münasibətlər saxlamaq məqsədilə mülayim gömrük siyasəti yeridirdi.[5] Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi

---

[1] Vəlixanlı N. Ərəb xilafəti dövründə gömrük işi haqqında / Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: "Elm", 2007, s.30-34; Aşurbəyli S. Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü. Bakı: Apostrof Çap evi, 2009; Onullahi S.M. XIII-XIV əsrlərdə Təbriz şəhəri. Bakı: "Elm", 1982; Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: Nurlan, 2003; Şərifli M.X. XIII-XIV əsrlərdə Azərbaycanda ticarət və ticarət yolları // SSRİ EA Azərbaycan filialının xəbərləri, 1944, № 2, s. 47-56; Ализаде А.А. Из истории феодальных отношений в Азербайджане в XIII-XIV вв. Термин Тамга // Известия АН Азербайджанской ССР, 1955, № 5, с.51-63; Гейдаров М.Х. К вопросу о значении торговли и торговых путей Азербайджана в XIII-XIV // Известия АН Азербайджанской ССР, сер. Истории, философии и права, 1981, № 1, с.49-54; Yenə onun, К вопросу о значении торговли и торговых путей Азербайджана в XIII-XIV // Известия АН Азербайджанской ССР 1981, сер. Истории, философии и права, №3, с. 53-60; Yenə onun, Торговля и торговые связи Азербайджана в позднем средневековье. Баку: "Элм", 1999; Мамедова А.М. Торгово-таможенная политика царизма в северном Азербайджане в первой половине XIX века: Автореф. дис. ... д-ра филос. по истории. БГУ. Баку, 2013

[2] Turhan Atan. Türk gümrük tarihi. cilt.1: Başlangıçtan Osmanlı Devletine kadar. Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu. Ankara, 1990; Yenə onun, Türk gümrük tarihi. cilt. 2. Osmanlı gümrükləri. Gümrük müfettişleri dernegi yayını. Ankara, Yayın №12.

[3] Mirzəyeva E. Orta əsr Azərbaycan şəhərlərində gömrük qaydalarına dair (XVI-XVII əsrlər) / Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: Elm, 2007, s.71; Воробьева А.Г. О торговых пошлинах в русско-азербайджанской торговле // Известия АН Азербайджанской ССР. Серия истории, философии и права, 1981, № 1, с. 43

[4] Seyidova G.M. XVII əsrdə Azərbaycan-Rusiya ticarət-vergi münasibətləri tarixindən / Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: "Elm", 2007, s.84

[5] Mustafazadə T.T. XVIII əsrdə Azərbaycanda ticarət və gömrük işi // Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: "Elm", 2007, s.98

imperiyanın cənub sərhədlərində[1] gömrükxanaların yaradılması məsələsini ön plana çəkdi. 1809-cu il avqustun 6-da çarın "Bakı gömrükxanasının açılması haqqında" xüsusi fərmanı oldu.[2] Rusiya imperiyasının Asiya və Yaxın Şərq ölkələri ilə xarici ticarət əməliyyatlarının canlanması Şimali Azərbaycan ərazisindəki gömrük məntəqələrinin fəaliyyətini xeyli genişləndirdi. Bakı Ticarət limanı Şıx burnundan Zığa (Sultan) qədər sahilboyunu əhatə edirdi.[3]

Çar Rusiyası süqut etdikdən sonra Azərbaycan hüdudlarında gömrük nəzarəti əslində başlı-başına buraxılmışdı. S.Şaumyanın rəhbərlik etdiyi Bakı XKS-nin Bakı gömrükxanasına yerləşdirdiyi bolşevik və daşnaklardan ibarət qeyri-peşəkar rəhbərlik gömrük rəsmiləşdirilməsinə aid maliyyə hesabatları hazırlamır, əksinə, ölkənin strateji mallarının oğurlanıb talan edilməsində fəal iştirak edirdi.

Birinci fəslin **"Azərbaycan Xalq Cümhuriyyətində gömrük işi"** adlı ikinci yarımfəslində AXC-nin yaranması bütün Şərq dünyasının demokratik, hüquqi dövlət quruculuğu tarixində ilk və ən böyük hadisə olması göstərilir. Həmin dövrdə gömrük işini tənzimləyən yeni qanun layihələri işlənib hazırlandı. Azərbaycan Hökumətinin 1918-ci il iyunun 22-də "Poylu stansiyasında sərhəd postunun yaradılması haqqında" qəbul etdiyi qərarla Azərbaycan tarixində ilk dəfə olaraq milli gömrük nəzarətinin yaradılması istiqamətində ilk addım atıldı. 21 oktyabr 1918-ci ildə qüvvəyə minən Müvəqqəti Tarif Cümhuriyyət dövrünün gömrük qanunvericiliyi sahəsində ilk hüquqi sənədi olmuşdur.[4] Halbuki Türkiyə Cümhuriyyətinin ilk gömrük qanunu yalnız 11 may 1949-cu ildə qəbul edilmişdi. Gömrük əməliyyatlarının xüsusiyyətlərinə görə gömrükxanalar quru yol (Astara, Biləsuvar, Balakən, Ağstafa, Yalama), dəniz (Bakı, Lənkəran), coğrafi mövqeyinə görə sərhəd (Culfa, Astara, Biləsuvar) və daxili (Ağstafa, Yalama) gömrükxanalar kimi təsnif olunurdu. Fiskal göstəricilərinin yüksəldilməsi bu sahənin əsas vəzifələrindən idi.[5]

Birinci fəslin **"Azərbaycan SSR-də sovet gömrük sisteminin qurulması və fəaliyyəti (1920-1960-cı illər)"** adlı üçüncü yarımfəslində gös-

---

[1] Süleymanov R.C. Azərbaycanda gömrük məntəqələrinin yaradılması və fəaliyyəti tarixindən (XIX əsrin I yarısı) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. 2002, № 2, s.130-138; Yenə onun, XIX əsrin birinci yarısında gömrük tarixinə dair // Tarix və onun problemləri, 1999, №1, s.49

[2] ARDTA: F. 376, siy.1, iş. 103, v.30; iş 363, v.137

[3] ARDA: F. 895, siy. 3, 257, v. 43, 47

[4] ARDA: F. 24, siy. 3, iş 23, v.4; f. 84, siy.1, iş 236, v.7-8

[5] ARDA: F. 90, siy. 3, iş 2, v. 32-34

tərilir ki, 1920-ci il aprelin 27-də Cümhuriyyətin süqutu ilə dövlət müstəqilliyini itirən və sovet imperiyasının tərkibinə qatılan Azərbaycanın müstəqil xarici iqtisadi fəaliyyət göstərməsinə imkan verilmədi. 1920-ci il yunun 1-də Nəriman Nərimanovun imzaladığı "Xarici ticarətin inhisarı" dekretinə əsasən xarici ticarət dövlət inhisarına alındı və yalnız Azərbaycan Hökumətinin icazəsi ilə malların idxalı və ixracı həyata keçirilə bilərdi.[1] Sovet hakimiyyətinin ilk günlərində gömrükxanalar Maliyyə Komissarlığının Gömrük hissəsinin tərkibinə daxil edildi. Gömrük hissəsi gömrük və sərhəd mühafizəsi adlı iki şöbədən ibarət idi.[2] "Azərbaycan SSR-in gömrük müəssisələrinin sərhəd mühafizəsi ilə qarşılıqlı münasibətləri haqqında Təlimat"da yeni rüsumlar və cərimələrin tətbiq olunmasına başlanıldı.[3] 1922-ci ilin aprelində Azərbaycan SSR XKS və Xalq Maliyyə Komissarlığı "Azərbaycan SSR-də gömrük nəzarəti haqqında Əsasnamə"ni təsdiq etdi.[4] Müharibə illərində Azərbaycan gömrükxanaları təsərrüfatın hərbi qaydada qurulmasında fəal iştirak edirdi. 1941-ci ildə Culfa-Mincivan və Osmanlı-Astara dəmiryolu xəttinin istismara verilməsi ilə Azərbaycan ərazisindəki gömrükxanaların fəaliyyəti daha da genişləndi. Müharibənin ilk illərində sərhəddən buraxılan yük və nəqliyyat vasitələri həcminin artması Bakı gömrükxanasının sovet gömrük sistemində mühüm bir yer tutmasından xəbər verirdi.[5] Lakin 1950-1960-cı illərdə Azərbaycanın xarici ölkələrlə iqtisad-ticarət əlaqələri geniş xarakter daşımadığından gömrük orqanlarının da fəaliyyəti bir o qədər nəzərə çarpmırdı. Sovet gömrük sistemi qabaqcıl ölkələrin gömrük işi təcrübəsindən kənarda qalmışdı.

Dissertasiyanın birinci fəslinin **"Sovet gömrük sistemində islahatlar və Azərbaycan SSR-nin xarici ticarət əlaqələri (1970-1980-ci illər)"** adlı dördüncü yarımfəslində qeyd olunur ki, sovet cəmiyyətinin 1970-ci illərdən qapalı olmaqdan çıxaraq xaricə "açılması" müttəfiq respublikaların iqtisadi əlaqələrinin, o cümlədən qərb ölkələri ilə iqtisadi-ticarət əlaqələrinin nisbətən genişlənməsinə səbəb oldu. Respublika rəhbəri Heydər Əliyev Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində böyük ixrac potensialının mövcud olduğunu yaxşı bilir və bu imkanlardan daha səmərəli istifadə edilməsinə mühüm əhəmiyyət verirdi. Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə bu sahədə qəbul edilən qərarlar və həyata keçirilən tədbirlər xarici iqtisadi-ticarət əlaqələrin və gömrük işinin də dirçəlməsinə səbəb oldu. 1981-ci il

[1] "Экономический вестник Азербайджана", 1921, № 6, с.20.
[2] ARDA: F. 85, siy. 3, iş 155, v. 2
[3] ARDA: F. 363, siy. 1, iş 777, v. 260-261
[4] ARDA Bakı filialı: F. 126, siy. 1, iş 19, v. 164
[5] ARDA: F. 2511, siy. 1, iş 103, v.85; ARDA Bakı filialı: F.126, siy 2, iş 3, v.10

martın 31-də Heydər Əliyev “Bakı gömrükxanasının 175-ci ildönümü ilə əlaqədar tədbirlər haqqında” Azərbaycan KP MK Bürosunun qərarını imzaladı. Qərarda Bakıda təntənəli yubileyin keçirilməsi, gömrükxananın inzibati binasına xatirə lövhəsinin vurulması, gömrük işçilərinin təltif edilməsi, həmçinin kütləvi informasiya vasitələrində gömrükxananın işinin təbliğ edilməsi nəzərdə tutulmuşdu.[1]

1989-cu ildə Bakı gömrükxanasının əməkdaşları ABŞ Fransa, İtaliya və digər qərb ölkələrindən Ermənistana göndərilən bağlamalarda dəfələrlə zəruri tələbat malları əvəzinə kommersiya məqsədi daşıyan bahalı trikotaj mallarının göndərilməsini aşkar etmişdilər. Bütün bunları nəzərə alaraq, gömrükxana rəhbərliyi İrəvana ünvanlanan beynəlxalq poçt göndərişlərinə tətbiq edilən güzəştlərin ləğv edilməsini tələb etmişdi. SSRİ Baş Gömrük İdarəsinin 27 yanvar 1989-cu il tarixli 17 saylı əmri ilə Bakı gömrükxanasının bazasında 29 may 1992-ci ilədək fəaliyyət göstərən Respublika Gömrük İdarəsi təsis edildi. İdarənin fəaliyyət zonasına Azərbaycan SSR və Dağıstan MSSR daxil idi. 1991-ci il 1 yanvar tarixli hesabata əsasən bir il ərzində gömrük daxilolmaları sərnişinlərin əl yüklərinə və baqajlara tətbiq edilən gömrük rüsumu 2 mln. 450 min manat təşkil etmişdi.[2] Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələrinin maddi əsasını təşkil edən amillərə, o cümlədən əlverişli coğrafi mövqeyə, zəngin strateji xammal və əmək ehtiyatlarına, iqtisadi və elmi-texniki potensiala olmasına baxmayaraq, fəal xarici iqtisadi-ticarət əlaqələrinə məhdudiyyətlər tətbiq olunurdu.

Beləliklə, birinci fəsil üzrə aşağıdakı nəticələri qeyd etmək olar:

– Azərbaycan dövlətçiliyi tarixində gömrük işi hər zaman mühüm yer tutmuş, Şimali Azərbaycan ərazisinin Rusiya tərəfindən işğalına qədər dövlətin əsas funksiyalarından olmuşdur;

– Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlətçilik ənənələrinin bərqərar olması ilə yaradılan milli gömrük quruculuğu sahəsində qazanılan zəngin təcrübə gömrük işinin təşkili və inkişafı tarixinin öyrənilməsi baxımından mühüm nəzəri və praktik əhəmiyyət daşıyır;

– 1920-ci ilin aprel işğalından sonra və SSRİ-nin yaradılması ilə sovet respublikalarının, o cümlədən Azərbaycanın xarici ticarət əlaqələri və gömrük orqanlarının fəaliyyəti və iş prinsipləri ümumittifaq maraqlarına tabe edildi;

– İkinci dünya müharibəsi illərində Bakı və Culfa gömrükxanaları təsərrüfatın hərbi qaydada yenidən qurulmasında, lend-liz xətti ilə gön-

[1] ARPİİSSA: F. 1, siy. 68, iş 62, v.52

[2] ARDA Bakı filialı: F.126, siy.2, iş 70, v.41

dərilən hərbi və humanitar yüklərin gömrük baxışından keçirilməsində mühüm rol oynadı;

– İnzibati-amirlik sistemi xalq təsərrüfatının bütün sahələrində olduğu kimi gömrük işinin inkişaf xüsusiyyətlərinə də mənfi təsir etdi: sovet gömrük qanunvericiliyi başlıca olaraq məhdudiyyətlər və qadağanedici prinsiplərə əsaslandığından dünya təcrübəsindən faydalanmaq imkanından kənarda qaldı.

Dissertasiyanın **"Azərbaycan Respublikasında milli gömrük sisteminin qurulması"** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. **"Müstəqilliyin ilk illərində xarici iqtisadi-ticarət əlaqələri və gömrük işinin təşkilində mənfi hallar"** – adlı birinci yarımfəsildə vurğulanır ki, SSRİ dağıldıqdan sonra müstəqillik əldə edən respublikalar kimi Azərbaycan da xarici iqtisadi-ticarət əlaqələrinin əsas istiqamətlərini, o cümlədən, gömrük, maliyyə-valyuta siyasətini formalaşdırmağa başladı.

"Keçmiş SSRİ Gömrük Komitəsinin Azərbaycan Gömrük İdarəsinin Azərbaycan Respublikasının tabeliyinə keçirilməsi haqqında" Ali Sovetin Milli Şurası 1992-ci il 15 yanvar tarixli 60 saylı qərarı ilə Gömrük İdarəsini Azərbaycan Respublikasının tabeliyinə keçirdi. Qərarda Respublika Prezidentinə tövsiyə edilirdi ki, Gömrük Komitəsinin yaradılması məsələsinə baxılsın.[1] Prezidentin "Azərbaycan Respublikası Gömrük Komitəsinin yaradılması haqqında" 1992-ci il 30 yanvar tarixli 561 nömrəli Fərmanı ilə Gömrük Komitəsi adlanan qurum təsis edildi və 1992-ci il mayın 29-da fəaliyyətə başladı. Lakin müstəqilliyin ilk illərində milli gömrük xidmətinin təşkilində yol verilmiş nöqsan və çatışmazlıqlar ölkənin iqtisadi təhlükəsizliyinə ciddi zərbə vururdu. Bir sıra obyektiv və subyektiv amillərin təsiri nəticəsində xarici iqtisadi-ticarət əlaqələrində tarazlıq pozulmuşdu. Gömrük nəzarəti sahəsində səriştəsizlik və özbaşınalıq hallarının mövcudluğu sosial-iqtisadi vəziyyətə mənfi təsir göstərməklə bərabər, xarici iqtisadi əlaqələrin düzgün təşkilinə də mane olurdu.

Ölkəmizin beynəlxalq iqtisadi münasibətlər sistemində yeri və rolunun ümummilli mənafelərə uyğunlaşdırılması, ilk növbədə, milli dövlətçiliyin möhkəmləndirilməsi, siyasi və milli müstəqilliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığının təminatı kimi fundamental məsələlər həyata keçirilməli idi. Ölkədə yaranmış qeyri-sabit ictimai-siyasi vəziyyət, idarəetmə sahəsində hökm sürən hərc-mərclik, eləcə də Gömrük Komitəsinin keçmiş rəhbərliyinin səriştəsiz fəaliyyəti bir müddət milli gömrük xidmətinin təşkilati, maddi-texniki və hüquqi əsaslarını düzgü məcraya yönəltməyə imkan vermədi. Belə ki, gömrük gəlirlərinin dövlət

[1] Azərbaycan SSR Ali Sovetinin Məlumatları. 1992, 15 fevral, № 3, maddə 39

büdcəsinə köçürülməsində saxtakarlığa yol verilirdi. Gömrük sisteminin infrastrukturu, elmi-texniki, hüquqi və informasiya təminatı və peşəkar kadr potensialı müasir tələblərə cavab vermirdi. Gömrük nəzarətində ixtisaslı kadr çatışmazlığı mövcud idi: əməkdaşların sayı cəmi 59 nəfər idi. 1991-1993-cü illərdə gömrük orqanlarının bir sıra rəhbər işçiləri dövlətə vurduqları külli miqdarda ziyana görə cinayət məsuliyyətinə cəlb olunmuşdular. Bütün bunlar isə öz növbəsində ölkənin milli maraqlarına müvafiq olaraq daxili və xarici siyasətinin elmi əsaslara malik strateji xəttinin hazırlanmasını, gömrük sisteminin inkişaf konsepsiyasının hazırlanmasını çətinləşdirirdi.[1]

Gömrük işi sahəsində əsaslı islahatların aparılmasını zəruri hesab edən Heydər Əliyev ilk dəfə 1993-cü il noyabrın 19-da keçirilən ümumrespublika müşavirəsindəki çıxışında gömrük xidmətində yol verilən problemləri nəzərdə tutaraq demişdi: “Gömrük idarələrində qanun pozuntuları var, öz vəzifələrindən sui-istifadə edirlər, gömrük işçilərinin rüşvətxorluqla məşğul olması barədə çoxlu siqnal alınır”.[2]

Rüşvətxorluq, korrupsiya, oğurluq halları müstəqil dövlətimizə iqtisadi zərər vurmaqla bərabər, beynəlxalq aləmdə kövrək addımlarını atan Azərbaycan Respublikasının siyasi nüfuzuna da xələl gətirirdi.

Birinci fəsildə aparılan araşdırmalarla aydın olur ki, Azərbaycanın xarici iqtisadi-ticarət əlaqələrinə gömrük işi ilə bağlı aşağıdakı amillər təsir etməkdə idi: ölkə sərhədlərini tam əhatə edən gömrük şəbəkəsinin yoxluğu və ərazinin bir hissəsinin erməni işğalı altında olması; ölkənin iqtisadi təhlükəsizlik sisteminin tərkib hissəsi olmaqdan xeyli uzaq olması, qaçaqmalçılığa qarşı mübarizənin son dərəcə zəif aparılması; yüksək gömrük rüsumları və gömrük nəzarəti orqanlarının inkişaf etmiş infrastrukturun zəifliyi; gömrük xidmətində kök salan korrupsiya halları nəticəsində gömrük vergi və rüsumları hesabına dövlət büdcəsinə daxilolmaların cüzi hissə təşkil etməsi; milli gömrük siyasəti və gömrük qanunvericiliyinin hazır olmaması; xarici bazarlara aid informasiyanın azlığı; milli valyutanın dəyərdən düşməsi; ixtisaslı kadrların çatışmaması və s.

İkinci fəslin **“Ümummilli lider Heydər Əliyev və gömrük idarəçiliyinin yeni əsaslar üzərində qurulması. Milli gömrük siyasətinin formalaşması”** adlı ikinci yarımfəslində göstərilir ki, dünyanın sivil dövlətlərinin inkişaf təcrübəsində sınaqdan çıxmış və Azərbaycan gerçəkliyinə tam uyğunlaşdırılan adekvat modeli olan azad sahibkarlığa, müxtəlif

---

[1] ARDA Bakı filialı: F.126, siy.2, iş 68, v.3

[2] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. İyun, 1993 – may, 1994. Bakı: Azərnəşr, 1997, s.257

mülkiyyət və təsərrüfatçılıq formalarının inkişafına bərabər şərait yaradan, azad iqtisadi rəqabət mübarizəsinə meydan açan sosial istiqamətli bazar iqtisadiyyatı modelinə üstünlük verildi.

Respublika Prezidenti Heydər Əliyev həyata keçirilməkdə olan iqtisadi islahatların gedişi ilə ayaqlaşa bilməyən Gömrük Komitəsi rəhbərliyinin üzdəniraq fəaliyyətini geniş müzakirəyə çıxardı, bu sahədə ciddi nöqsanların mövcud olmasının və cinayət hallarının siyasi qiymətini verdi.[1]

Gömrük xidmətində yaranmış vəziyyətin müzakirə edildiyi müşavirənin yekunları ilə əlaqədar "Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında" 1995-ci il 9 yanvar tarixli Prezident Fərmanında qeyd olunurdu ki, gömrük sistemində yaranmış böhranlı vəziyyət xarici iqtisadi əlaqələrin inkişafına ciddi maneçilik törətməklə bərabər, ölkəmizin iqtisadi əsaslarına son dərəcə sarsıdıcı təsir göstərmişdir. Bu sahədə vəziyyətin normallaşdırılmasına yönəldilən başlıca vəzifələr strateji məhsulların ayrı-ayrı təşkilatlar tərəfindən satılmasına son qoyulması, valyuta gətirən malların ixracının mərkəzləşdirilərək iqtisadiyyatımızın inkişafına, ölkənin ağır vəziyyətdən çıxmasına yönəldilməsi, gömrük idarələrində qanun pozuntularının və gömrük əməkdaşlarının öz vəzifələrindən sui-istifadə etmələrinin qarşısının alınması və iş adamları üçün əlverişli şəraitin yaradılmasında ibarət idi. Milli maraqlara xidmət edən gömrük siyasətinin işlənilib hazırlanması, strateji məhsulların, valyuta gətirən malların ixracı hesabına valyuta fondunun yaradılması, ixrac olunan mallara qoyulan vergilərin düzgün tənzimlənməsi gömrük sistemində həllini gözləyən ən zəruri vəzifələr idi.[2]

Ulu öndər Heydər Əliyevin mükəmməl gömrük sisteminin yaradılması sahəsində işləyib hazırladığı strategiya, prinsipial müddəa və tövsiyələri konkret olaraq aşağıdakı məsələləri əhatə edirdi: 1) gömrük xidməti ölkənin müstəqilliyi təmin edən, onu qoruyan və inkişaf etdirən mühüm dövlət orqanıdır; 2) gömrük məntəqələri dünya standartlarına uyğun texnika və cihazlarla təchiz olunmalıdır; 3) gömrük xidməti ölkənin xarici ticarəti ilə sıx bağlıdır və buna görə də xarici ticarət əlaqələrinin həcmi artdıqca, gömrük xidmətinin fəaliyyətindən gələn gəlirlər də artmalıdır; 4) idxal-ixrac əməliyyatları üzərində nəzarəti gücləndirilməlidir; 5) gömrük işçisi bilikli olmalı, biliyi, təcrübəsi ilə yanaşı müasir nəzarət avadanlıqlarını

---

[1] Respublikada gömrük işi sahəsində ciddi qayda yaratmalı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yekun sözü // "Azərbaycan", 1995, 11 yanvar, №7 (1024).

[2] Azərbaycan Respublikası Ali Sovetinin Məlumatları. 1995, 31 yanvar, №1-2, maddə 29

dərindən mənimsəməlidir; 6) gömrük işçiləri Azərbaycan dövlətinin qanunlarına sözsüz əməl etməli, dövlətinə, xalqına və öz peşəsinə sadiq olmalıdır; 7) gömrük işçisinin vəzifələrindən sui-istifadə etməsinə qarşı mübarizə aparılmalıdır; qaçaqmalçılıqla mübarizə gömrük təşkilatının əsas vəzifəsidir; 8) milli gömrük xidməti inkişaf etmiş ölkələrin gömrük xidməti səviyyəsinə çatdırılmalıdır; gömrük orqanlarında çalışan əməkdaşlar öz vəzifələrinin nə qədər məsuliyyətli olduğunu dərk etməlidir, mənəvi təmizlik, mənəvi saflıq, qanunlara riayət etmək, öz işinə sədaqət prinsipləri gömrük orqanlarında bərqərar olmalıdır. Heydər Əliyev xüsusilə qeyd edirdi ki, bizim milli maraqlarımıza cavab verən gömrük siyasətimiz olmalıdır: "Gömrük siyasəti iqtisadiyyatımızın yüksəlməsini təmin edən əsas amillərdən biridir. Biz gərək bir tərəfdən gömrük siyasətimizi tənzimləyək, digər tərəfdən elə edək ki, gömrük qanunları günün tələblərinə uyğun olsun".[1]

İkinci fəslin üçüncü - **"Naxçıvan Muxtar Respublikasında gömrük işi"** adlı yarımfəslində Muxtar Respublikada gömrük işinin təşkili məsələləri təhlil edilir. Hələ 1991-ci ilin oktyabrında Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə İran tərəfi yük avtomobillərinin öz ərazisindən Azərbaycan Respublikası ərazisində tranzit rejimdə hərəkətinə razılıq vermişdi.

1992-ci il yanvarın 31-də Naxçıvan MR Ali Məclisinin gömrükxanaların fəaliyyətində buraxılan ciddi nöqsanlar haqqında qərarından sonra bu sahədə ciddi dönüş yaradıldı. Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev və Türkiyə Respublikasının baş naziri Süleyman Dəmirəlin 1992-ci ilin martın 24-də imzaladıqları "Azərbaycana bağlı Naxçıvan MR ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu"na əsasən may ayının 28-də istifadəyə verilən Sədərək-Dilucu körpüsü ölkəmizin iqtisadi-ticarət əlaqələrinin genişlənməsi istiqamətində yeni imkanlar açdı.[2] İran İslam Respublikası ilə danışıqların nəticəsi olaraq həmin ilin dekabr ayının 3-də Şahtaxtı-Poldəşt gömrük-keçid məntəqəsi istifadəyə verildi.[3]

Prezident İlham Əliyevin 2005-ci il yanvarın 24-də İran İslam Respublikasına rəsmi səfəri zamanı Şahtaxtı-Poldəşt körpüsünün tikintisinə qərar verildi və cəmi iki il ərzində istifadəyə verildi. Culfa və Şahtaxtı Gömrük

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar. 8-ci kitab. Bakı: Azərnəşr, 1998, s. 352

[2] Naxçıvan MR Ali Məclisinin sessiyasında Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin nitqi. "Şərq qapısı" qəz., 1992, 26 sentyabr

[3] Qayıdış 1990-1993. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: "Azərnəşr", 2008, s.825

idarələrinin sərhəd-keçid məntəqələri ən müasir texniki tələblər səviyyəsində yenidən quruldu. Fəaliyyətdə olan 3 gömrük-buraxılış məntəqəsi sutkanın 24 saatı ərzində işləyirdi. Gömrük sərhədindən həm yük, həm də sərnişin keçidi ildən-ilə artmaqda idi. Orta hesabla bir il ərzində Muxtar Respublikanın gömrükxanalarından keçirilən 50 min tondan artıq yükə gömrük baxışı həyata keçirilir, 30-dan çox ölkə ilə ticarət əməliyyatları aparılırdı. Naxçıvan MR Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli fərmanına əsasən gömrük orqanlarında e-hökumətə keçid istiqamətində tədbirlər həyata keçirildi.

İkinci fəsildə aparılan araşdırmalar aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

– 1992-1994-cü illərdə gömrük xidmətinin fəaliyyətində bir çox əyintilərə və nöqsanlara yol verilməsi dövlət büdcəsinə və iqtisadi təhlükəsizliyimizə xələl gətirilmişdir;

– müstəqilliyin ilk illərində xarici iqtisadi-ticarət fəaliyyət sahəsində yol verilən mənfi hallar aradan qaldırılmış, ölkənin idxal-ixrac mallarının rəsmiləşdirilməsində şəffaflığa əsaslanan vahid gömrük sisteminin iqtisadi, təşkilati-texniki və hüquqi mexanizminin əsasları yaradılmışdır;

– araşdırılan dövrdə gömrük xidmətində yüksək nizam-intizam, peşəkarlıq mühiti formalaşdırıldı. Hər bir gömrük əməkdaşının öz xalqına və peşəsinə sadiqliyi, qanunçuluğa ciddi riayət etməsi kimi prinsiplər əsas meyara çevrilmişdir;

– Azərbaycanda bazar mexanizmlərinin geniş tətbiqi əsasında milli iqtisadiyyatın inkişafında dönüş yaradılması, bazar iqtisadiyyatına əsaslanan liberal sistemin tətbiqi, yaxın və uzaq ölkələrlə ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi dövlətin iqtisadi strategiyasının prioritet istiqamətlərindən biri olmuşdur.

Tədqiqat işinin üçüncü fəsli **"Azərbaycan Respublikasının gömrük sisteminin hüquqi əsasları"** adlanır və iki yarımfəsildən ibarətdir. **"Milli gömrük qanunvericiliyinin formalaşması"** yarımfəslində qeyd olunur ki, xarici iqtisadi fəaliyyətin tənzimetmə mexanizminin beynəlxalq tələblərə uyğunlaşdırılması, ilk növbədə, gömrük işinin elmi və qanunvericilik əsaslarının işlənilib hazırlanmasını tələb edirdi. Azərbaycan Respublikasında bazar iqtisadiyyatı sisteminə keçidin hüquqi təminat bazasının yaradılması istiqamətində qanunlar qəbul edildi. Nazirlər Kabinetinin 1994-cü il 18 fevral tarixli 69 nömrəli qərarı ilə "Gömrük Tarif Şurası"nın Əsasnaməsi təsdiq edildi. Bu orqana gömrük siyasətinə və tarif məsələlərinə aid qanun layihələrinin hazırlanmasında iştirak etmək, gömrük rüsumu tətbiq olun-

ması haqqında təkliflər vermək səlahiyyəti verildi. 1995-ci il iyunun 20-də qəbul edilmiş "Gömrük tarifi haqqında" Qanun normativ-hüquqi sənədlərdən biri oldu. Azərbaycan Respublikasının 1997-ci ildə tətbiq edilən ilk Gömrük Məcəlləsi ölkənin iqtisadi təhlükəsizliyi və iqtisadi maraqlarının qorunmasını təmin edən, hüquqi, iqtisadi və təşkilati münasibətlər baxımından mükəmməl hüquqi sənədlər idi. 1997-ci il yanvarın 1-dən Azərbaycanın gömrük sistemi 15 faizlik vahid gömrük dərəcəsi olan unifikasiya edilmiş tarif sisteminə keçdi, ixraca tətbiq edilən bütün vergilər ləğv olundu.[1] 2011-ci il iyunun 17-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və iqtisadi siyasət Komitəsinin keçirilən birgə iclasında yeni Gömrük Məcəlləsi layihəsinin BMT, Avropa İttifaqı, ATƏT, Avrasiya Əməkdaşlıq Fondu, Azərbaycanda Amerika Ticarət Palatası, TUSİAB nümayəndələrinin iştirakı ilə ictimai dinləmələri keçirildi.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli Fərmanı ilə təsdiq edilən yeni "Gömrük Məcəlləsi"ndə əsas anlayışların tərifi, gömrük orqanlarının fəaliyyəti, vəzifələri, hüquqları, gömrük orqanlarının sistemi, gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti və digər ümumi xarakterli məsələlər, xüsusi hissədə isə gömrük nəzarəti və rəsmiləşdirilməsi, gömrük prosedurları, gömrük tarifi, malların gömrük dəyəri və mənşə ölkəsi, gömrük ödənişləri, gömrük borcu, gömrük ekspertizası və Azərbaycan Respublikasının gömrük strukturu təsbit edildi.[2]

Üçüncü fəslin **"Gömrük nəzarətinin hüquqi-normativ qaydalarının hazırlanması"** yarımfəslində Azərbaycan Respublikası DGK-nın qanun yaradıcılıq fəaliyyəti təhlil olunur. Qeyd olunur ki, DGK, Nazirlər Kabineti və Milli Məclis səviyyəsində gömrük-tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində sənədlər hazırlandı. Bununla bərabər, Gömrük xidməti orqanlarından yeni, daha səmərəli yanaşma üsullarının tətbiq edilməsi tələb olunurdu. Bu fəsildə aparılan araşdırmalar göstərir ki, DGK-nın gömrük qanunvericiliyin təkmilləşdirilməsi sahəsində qanun yaradıcılıq fəaliyyəti aşağıdakı istiqamətlər üzrə dəyərləndirilə bilər: gömrük hüququ beynəlxalq saziş və konvensiyaların müddəalarına uyğunlaşdırılması; ölkənin iqtisadi təhlükəsizliyinə zərər vuran cinayətlərin, hüquqpozmaların aşkar olunması və qarşısının alınması sahəsində beynəlxalq müqavilə və sazişlərin hazırlanması; gömrük nəzarəti və gömrük rəsmiləşdirməsi qaydalarının daha da sadələşdirilməsi. DGK sədrinin əmrləri ilə

---

[1] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu: 31 dekabr 1997-ci il, № 6, maddə 447

[2] Yenə orada, 2011, № 9, maddə 787

təsdiq edilən müvafiq qayda və təlimatlar gömrük işinin hüquqi-normativ bazasının daha təkmil vəziyyətə gətirməklə normayaradıcı fəaliyyətin mühüm istiqamətlərindən birini təşkil edirdi. Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının tətbiqi, kvota və lisenziyalaşdırma, hüquq-mühafizə fəaliyyəti və valyuta nəzarətinin həyata keçirilməsi ilə bağlı qaydaların işlənilib hazırlanması və s. məsələlər gömrük xidmətinin idarəetmə funksiyalarını daha da genişləndirirdi. Bu sənədlərin əsas hissəsini xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi ilə bağlı hüquqi-normativ sənədlər, təlimatlar və qaydalar təşkil edirdi. Gömrük işinə aid normayaradıcı sənədlərdə xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin tarif üsulları, vergi siyasətinin prinsipləri və növləri, gömrük rüsumlarının mahiyyətini və səviyyəsini müəyyənləşdirilmə mexanizmi öz əksini tapmışdır.

Dördüncü fəsil **"Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafı və gömrük işinin təkmilləşdirilməsi"** adlanır və dörd yarımfəsli əhatə edir. Bu fəslin **"Sosial-iqtisadi inkişaf, xarici ticarət və nəqliyyat-kommunikasiya sahələri üzrə dövlət proqramlarının həyata keçirilməsində gömrük orqanlarının iştirakı"** adlı birinci yarımfəslində göstərilir ki, xarici ticarətin müasir tipli infrastrukturun (nəqliyyat, sığorta, anbarlar, informasiya sistemi və s.) və ixracın həvəsləndirilməsi mexanizminin yaradılması kimi tədbirlərin həyata keçirilməsində gömrük orqanlarının rolu əhəmiyyətlə dərəcədə artmış oldu. Belə ki, "Əsrin müqaviləsi" əsasında beynəlxalq neft şirkətləri tərəfindən neft ehtiyatlarının istismarı üçün ölkəmizə gətirilən avadanlıqların gömrük rəsmiləşdirilməsinin operativ surətdə həyata keçirilməsi məqsədilə yeni gömrük nəzarəti məntəqələrinin açılması zərurəti yaranması buna misal ola bilər. "1999-2002-ci illərdə Azərbaycan Respublikasında ticarətin inkişafı üzrə Dövlət Proqramı"nın mühüm istiqamətlərindən birini də ixrac potensialının artırılması, ixracın strukturunun təkmilləşdirilməsi və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi təşkil edirdi.[1] "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nda gömrük xidmətinə bir sıra məsələlərin həll edilməsi tapşırıldı. Gömrük orqanları: a) gömrük prosedurlarının sadələşdirilməsinə aid təkliflərin hazırlanması; b) gömrük rüsumları səviyyəsinin və tarif güzəştlərinin sayının azaldılması və təkmilləşdirilməsi məsələlərini təhlil etməli; c) gömrük sahəsində çalışan işçilərin peşəkarlıq səviyyəsinin artırılması kimi vəzifələri yerinə yetirməli idi.[2] Azərbaycan Respublikasının gömrük siste-

---

[1] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu: 31 iyul 1999-cu il, № 7, maddə 42

[2] Yenə orada, 3 mart 2003-cü il, № 2, maddə 86

minin 2007-2011-ci illərdə inkişafına dair “Dövlət Proqramı”nda gömrük sərhədindən malların daşınmasının sürətləndirilməsi və sahibkarlıq subyektlərinə əlverişli şəraitin yaradılmasının təmin edilməsi; inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və haqsız rəqabətin qarşısının alınması sahəsində tədbirlərin gücləndirilməsi; ixracın təşviqi və genişləndirilməsi, həmçinin daxili bazarın qorunması məqsədilə gömrük tənzimləmə mexanizminin və infrastrukturun daha da inkişaf etdirilməsi qarşıya qoyulmuşdu.[1]

Dördüncü fəslin **“Büdcə gəlirlərinin artırılmasında gömrük nəzarətinin rolu. Fiskal göstəricilərin yüksəldilməsi”** adlı ikinci yarım-fəslində Azərbaycan Respublikasının strateji tərəfdaş ölkələrlə ikitərəfli əlaqələrin yeni keyfiyyət müstəvisinə yönəldilməsi istiqamətində görülən əməli tədbirlər araşdırılır. Araşdırmalar göstərir ki, ki, 1994-2011-ci illər üzrə gömrük tarif tənzimlənməsi sistemi vasitəsi ilə dövlət büdcəsinə toplanılan gömrük vergi və rüsumlarının həcmi və xüsusi çəkisi dəfələrlə yüksəldi.

**Dövlət büdcəsinə gömrük daxilolmalarının dinamikası (min manatla)**

| İllər | idxal rüsumu | ƏDV | aksizlər | digər | yol vergisi | ixrac rüsu mu | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| 1994 | - | - | - | - | - | - | 3479,8 |
| 1995 | 4490, 0 | 4576, 9 | - | 2933,7 | - | 1203,9 | 13154, 5 |
| 2000 | 54265,7 | 76976, 6 | 2396,4 | 8549, 5 | 1733,1 | - | 143921, 3 |
| 2001 | 47469,7 | 104310,3 | 6339, 9 | 4599, 4 | 1653, 5 | 69,1 | 164441, 6 |
| 2002 | 51897, 4 | 120414, 2 | 7184, 3 | 3453, 4 | 1418, 9 | 0.4 | 184368,7 |
| 2003 | 58532,7 | 143526, 2 | 8663, 9 | 124,5 | 1070, 6 | 309,1 | 212246, 9 |
| 2004 | 76279, 6 | 171330, 8 | 11144, 4 | 228, 6 | 1228, 9 | 453,9 | 260666, 2 |
| 2005 | 100492, 4 | 253820, 2 | 19734, 8 | 223, 9 | 1375, 8 | 525,3 | 376172, 4 |
| 2006 | 138559, 1 | 351389, 7 | 23383,1 | 236,4 | 1848, 4 | 542,8 | 515959, 4 |
| 2007 | 159367, 2 | 535056, 1 | 72359, 5 | 333, 5 | 4319, 8 | 376,4 | 772012, 5 |
| 2008 | 237477, 3 | 775232, 2 | 91148, 3 | 324,3 | 5347, 9 | 843,7 | 1110373, 8 |
| 2009 | 205250, 1 | 832490, 8 | 67779, 1 | 210, 1 | 6746, 0 | 220,5 | 1112696, 8 |
| 2010 | 217699, 0 | 810957, 2 | 62885, 0 | 349, 3 | 9631, 2 | 205,8 | 1101772, 5 |

*Mənbə: AR DGK-nın Cari Arxivinin 1995-2011-ci illərə aid materialları*

Cədvəldən göründüyü kimi, əgər 1994-cü ildə dövlət büdcəsinə gömrük orqanları tərəfindən cəmi 3479,8 min manat köçürülmüşdüsə, sonrakı illərdə gömrük ödənişlərinin həcmi artaraq 2000-ci ildə 143921,3

[1] “Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. “Gömrük Xəbərləri” qəz., 2009, 26 dekabr

min, 2005-ci ildə 376172,4 min, 2008-ci ildə 1110373,8 min manat olmuşdu. 2011-ci ildə isə bu rəqəm rekord səviyyəyə – 1141528,5 min manata çatmışdı. Problemin gömrük sənədləri əsasında ətraflı təhlili bu sahədə bir sıra nöqsanların da olduğunu göstərirdi: iqtisadi əlaqələrin əsas hissəsini ticarət əlaqələri təşkil edirdi, eyni məhsul qrupları həm idxalda, həm də ixracda güclü mövqe tuturdu. Bütün bunlar xarici ticarətin vahid konsepsiyanın təkmilləşdirilməsini, daxili və xarici bazarın tələblərini nəzərə almağı tələb edirdi. Gömrük ödənişlərinin dinamikasının təhlili göstərirdi ki, gömrük orqanlarının mühüm vəzifəsi olan fiskal funksiyanın – gömrük vergi və rüsumları üzrə proqnozların yerinə yetirilməsində, idxal və ixracın coğrafi quruluşunda və əmtəə tərkibində əsaslı dəyişikliklər baş vermişdi. Dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında gömrük ödənişlərinin xüsusi çəkisi azalmaqğa doğru meyl etsə də, mütləq rəqəmlərin həcminin artımı müsbət hal kimi qiymətləndirilməlidir.

Dördüncü fəslin **"Gömrük xidmətinin kadr potensialı. Xidmətin maddi-texniki resurslarının artırılması"** adlı üçüncü yarımfəslində göstərilir ki, Azərbaycan dövləti gömrük sistemində kadr siyasətinin daha mükəmməl aparılmasına xüsusi önəm verir. Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın idarə edilməsi sisteminin yaradılması gömrük orqanlarının texniki təminat səviyyəsi və kadr tərkibinin effektiv fəaliyyət göstərməsi bir sıra məsələlərin həllini tələb edirdi. "Azərbaycan Respublikası gömrük orqanları vəzifəli şəxslərinin Attestasiyası haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq əməkdaşların tutduğu vəzifəyə, ixtisasına və peşə səviyyəsinə uyğunluğu yoxlanılır, peşə və iş keyfiyyəti, qabiliyyət və imkanlarının tətbiqi perspektivi müəyyən edilirdi. Gömrük xidmətinin kadr potensialının formalaşdırılmasında rəhbər tutulan başlıca prinsiplər aşağıdakılar idi: a) uyğun profilli təhsil müəssisələrini bitirmiş ali və orta ixtisas təhsilli mütəxəssislərin işə qəbul edilməsi; b) əməkdaşların iş yerini dəyişməklə və yeni ixtisasa yiyələndikdən sonra işə qəbulu; c) qurumdaxili kadr hazırlığı sisteminin yaradılması; ç) peşə hazırlığı və ixtisas səviyyəsinin artırılmasında çoxpilləli sistemin tətbiq edilməsi və s.[1]

Tədqiq edilən dövrdə ölkənin gömrük infrastrukturu yüksək beynəlxalq tələblərə uyğun inkişaf etdirilirdi. Məsələn, 1995-2011-ci illərdə Bakı Baş Gömrük İdarəsinin gömrük postları, idarənin inzibati binası, Tovuz gömrük idarəsinin sərhəd-keçid məntəqələrindəki gömrük postları, Xəzər Dənizində Azərbaycan Respublikasının İqtisadi mənafelərinin müdafiəsi idarəsinin

---

[1] Heydərov K.F. Azərbaycanın gömrük xidməti. Bakı: "Azərnəşr", 1998, s.100; Yenə onun. Gömrük işinin əsasları: gömrük işinin idarə edilməsi və inkişafı. 4 cilddə. IV c. Bakı: "Azərnəşr", 2000, s.280

inzibati binası və postları, Astara və Balakən gömrük idarələri, daha sonrakı müddətdə Sumqayıt Baş gömrük idarəsi, Regional tədris mərkəzi və Kinoloji mərkəz, DGK-nın inzibati binası, Enerji gömrük idarəsi, Lənkəran dəniz nəzarəti postu, "Samur" gömrük terminalı və postu, "Şirvanovka" gömrük postunun inzibati binaları, Hava nəqliyyatında baş gömrük idarəsi, DGK-nın Tibb xidməti idarəsi, Gömrük hospitalı, Yevlax gömrük idarəsinin inzibati binaları, "Sınıq körpü" gömrük buraxılış məntəqəsi, "Biləsuvar" və "Astara" gömrük buraxılış məntəqələri, "Mazımçay" və "Samur" gömrük postu, Avtonəqliyyat gömrük idarəsi, DGT-nın Potensialının gücləndirilməsi üzrə Avropa Regional Bakı ofisinin inzibati binaları istifadəyə verildi.[1]

Dördüncü fəslin dördüncü yarımfəsli **"Gömrük hüquqpozmaları, qaçaqmalçılıq və narkotik maddələrin qeyri-leqal daşınmasına qarşı gömrük xidmətinin hüquq-mühafizə fəaliyyəti"** adlanır və burada gömrük orqanlarının gömrük sərhədində baş verə biləcək qaçaqmalçılıq hallarına və narkotik maddələrin qeyri-qanuni daşınmasının qarşısının alınması sahəsində fəaliyyəti araşdırılır. Bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın reallaşdırılması başlıca məsələlərdən idi. 1997-ci ildən başlayaraq, BMT-nin "Cənubi Qafqazda Narkotiklərə Nəzarət" adlı regional yardım Proqramı (SCAD) çərçivəsində gömrük əməkdaşlarının bu sahə üzrə peşəkarlıq və ixtisas səviyyəsinin yüksəldilməsi, maddi-texniki resursların gücləndirilməsi istiqamətində çoxmərhələli layihələr həyata keçirilirdi.[2]

BMT, Avropa Birliyi, İƏT, MDB və GUAM üzv dövlətləri, TRASEKA və DGT kimi beynəlxalq təşkilatlar, eyni zamanda çərçivəsində və dünyanın bir çox gömrük təşkilatları ilə imzalanan çoxtərəfli və ikitərəfli müqavilə, saziş və memorandumlar beynəlxalq təcrübədən və qabaqcıl texnologiyalardan faydalanmağa imkan verirdi. Gömrük statistikasına görə, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı (2007-2012-ci illər)" üzrə tədbirlər öz səmərəsini verirdi: aşkar edilən küllü miqdarda narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılırdı. İstintaq materialları ilə bağlı sənədlər qaçaqmalçıların ən çox İran - Azərbaycan - Rusiya marşrutundan istifadəyə cəhd etdiyini təsdiq edirdi. Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının tətbiqi, kvota və lisenziyalaşdırma, hüquq-mühafizə fəaliyyəti və valyuta nəzarətinin həyata keçirilməsi ilə

---

[1] Mehdiyev S. Azərbaycanın gömrük xidməti fəaliyyətini ölkənin inkişaf strategiyasına uyğun qurur. "Azərbaycan" qəz. Bakı, 25 yanvar, 2012

[2] SCAD proqramı çərçivəsində əlaqələr genişlənir / Gömrükçü, Azərbaycan Respublikası DGK, 2007, №2, s.71

bağlı məsələlər, gömrük xidmətinin funksiyalarının daha geniş xarakter almasının göstəricisi idi. Bu faktlar üzrə daşınma marşrutlarının təhlili, tutulan şəxslərin vətəndaşlığı cinayətlərin bir neçə dövlətin ərazisini əhatə etməklə transmilli xarakterə malik olduğunu və onlara qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını göstərirdi.[1]

Bu illər ərzində qaçaqmalçılıq hallarına və gömrük qaydalarının pozulmasına qarşı keçirilən profilaktik tədbirlər nəticəsində milyonlarla manat həcmində vəsaitin dövlət büdcəsinə keçirilməsi təmin edilmişdi.

Dördüncü fəslin **"Mədəni sərvətlərin qaçaqmalçılığına qarşı görülən tədbirlər"** adlı beşinci yarımfəslində gömrük orqanlarının milli-mənəvi dəyərlərin qorunması, tarixi-mədəni sərvətlərin qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılması hallarının qarşısının alınması və beynəlxalq miqyasda təbliği sahəsində fəaliyyəti araşdırılır.

Tədqiqat materialları DGK-nın öz fəaliyyətində mədəni irsin qorunmasına xüsusi diqqət ayırdığını göstərir. Ölkədən qaçaqmalçılıq yolu ilə çıxarılmasına cəhd edilən tarixi əhəmiyyət daşıyan bir çox əşyalar, qədim əlyazmalar, sənətkarlıq nümunələri müəyyən edilərək qeyri-qanuni dövriyyədən çıxarılır və gömrük muzeyində nümayiş etdirilirdi. Gömrük orqanları tərəfindən müsadirə edilən nadir kitabların, ikona və digər dini əşyaların aid təşkilatlara bağışlanması bir müsbət ənənə halını almışdı. DGK-nın gömrük tarixi muzeyi 2007-ci ilin iyun ayında Beynəlxalq Gömrük Tarixi Muzeyi Assosiasiyasına (ICOM), 2008-ci ilin sentyabr ayında Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasına (İACM) üzv seçilmişdi. 2007-ci il Bakıda "Azərbaycan gömrüyünün tarixi təsviri sənətdə", 2008-ci ildə Brüssel və Cenevrədə "Azərbaycan gömrüyü mədəni irsin keşiyində" adlı sərgilər təşkil olunmuşdu. [2]

2009-cu ilin aprelində Vatikanda Azərbaycan Respublikası DGK və Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan gömrüyü mədəni və dini irsin keşiyində" mövzusunda sərgilərin keçirilməsi mühüm hadisə idi. Bu istiqamətdə görülən işlər "Azərbaycan gömrüyü mədəni irsin keşiyində" və "Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik" (ingilis dilində) adlı kitablarda işıqlandırılmışdır. AMEA Tarix İnstitutu ilə birgə "Böyük İpək yolu" dövrünə təsadüf edən gömrük işi tariximizin

---

[1] Narkomaniya ilə mübarizə Azərbaycan dövlətinin əsas vəzifələrindən biridir, http//customs.gov.az/az/news-1103.html

[2] Azərbaycan gömrüyü Avrasiyanın mədəniyyət müxtəlifliyi astanasında, http://customs.gov.az/az/news-101.html.

araşdırılması sahəsində görülən işlər beynəlxalq sərgi iştirakçılarının diqqətinə çatdırılmışdır.[1]

Beləliklə, tədqiq edilən dövrdə Azərbaycan dövlətinin gömrük işi strategiyasında gömrük hüquqpozmalarına qarşı mübarizənin əsas prioritetləri aşağıdakılar idi: 1) gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozondağıdıcı maddələrin, mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət obyektlərinin, başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısının alınması; 2) milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, fauna və floranın, ətraf mühitin, bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması sahəsində tədbirlərin həyata keçirilməsində digər dövlət orqanlarına dəstək verilməsi, qanunvericilikdə nəzərdə tutulmuş hallarda onların fəaliyyətini əlaqələndirməsi; 3) terrorçuluğa qarşı mübarizə sahəsində qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və tədqiqi.

Dissertasiyanın **“Gömrük işi sahəsində beynəlxalq əlaqələrin inkişafı”** adlı beşinci fəslində Azərbaycan Respublikasının gömrük əməkdaşlığının əsas istiqamətləri araşdırılır, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddəalar ətraflı təhlil olunur. Bu fəslin **“Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın ümumi vəziyyəti”** adlı birinci yarımfəslində qeyd olunur ki, beynəlxalq münasibətlərin müstəqil subyekti kimi Azərbaycan dövlətinin qarşısında duran ən mühüm nəzəri və praktik həllini gözləyən məsələlərdən biri də gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın perspektiv istiqamətlərinin müəyyənləşdirilməsi olmuşdur. Gömrük işi sahəsində imzalanan ikitərəfli və çoxtərəfli sazişlər dövlətlər-arası gömrük münasibətlərinin əlaqələndirilməsində mühüm yer tuturdu. Regional təşkilatlarla əməkdaşlıq şimal, şərq və qərb istiqamətlərinə ayrılmaqla bərabər, hər bir istiqamət üzrə milli maraqların təmin edilməsi bu əlaqələri şərtləndirən əsas prioritetlərdir. Şimal istiqaməti üzrə əməkdaşlıq əsasən MDB və GUAM ilə əməkdaşlığı əhatə edirdi. Tədqiq olunan dövrdə Azərbaycan Respublikası MDB-yə daxil olan dövlətlərlə normal əməkdaşlıq münasibətləri yaratmağa çalışırdı. 1993-cü ilin sonlarında MDB-yə daxil olan 11 ölkənin qoşulduğu “İqtisadi ittifaqın yaradılması haqqında” sazişin imzalanması ilə bu əlaqələrin bünövrəsi qoyuldu. Bir il sonra isə MDB üzvü olan ölkələr arasında Azad ticarət

---

[1] Azərbaycan gömrüyü mədəni irsin keşiyində. Azərbaycan Respublikası DGK. Bakı: Elm, 2007; Customs service of Azerbaijan: Historic traditions and modernity. Baku, 2007

zonası, Gömrük birliyi, Ümumi mal və xidmət bazarı, Dövlətlərarası valyuta komitəsinin yaradılması haqqında sazişlər imzalandı. Lakin bu saziş və qərarların əksəriyyətinin işlək mexanizmi olmadığından kağız üzərində qalmışdır.

Azərbaycanın gömrük təşkilatının beynəlxalq əlaqələrinin daha geniş miqyasda aparılmasının əsası 1995-ci ildə imzalanan ikitərəfli sazişlərlə qoyulmuşdur. İlk dəfə ixraca nəzarət sahəsində ABŞ təcrübəsi öyrənilmiş və gömrük tariflərinin tətbiqi ilə bağlı hüquqi-normativ aktın modeli də bu ölkənin müvafiq qanunvericilik təcrübəsi əsasında yaradılmışdı.[1]

Tədqiq edilən dövrdə gömrük işi sahəsində beynəlxalq hüquqi əməkdaşlıq əlaqələiri başlıca olaraq dörd istiqamət üzrə: 1) Dünya Gömrük Təşkilatı; 2) MDB üzv dövlətlərinin gömrük təşkilatları; 3) İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində; 4) ikitərəfli münasibətlər əsasında ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə aparılırdı. DGK-nın əməkdaşları MDB üzv dövlətlərinin gömrük xidməti rəhbərlərinin Şurası (GXRŞ) çərçivəsində keçirilən ekspert iclaslarında fəal iştirak edirdi. Həmin görüşlərdə hazırlanan sənəd və layihələri üzrə təkmilləşdirmə işləri aparılır, gömrük işinin qarşılıqlı fəaliyyətini tənzimləyən saziş layihələri hazırlanırdı. Beynəlxalq iqtisadi təşkilatlarla əlaqələr iki əsas istiqamət üzrə: regional təşkilatlar və BMT-nin müxtəlif təşkilat və proqramları ilə aparılırdı.

Beşinci fəslin ikinci **"Beynəlxalq təşkilatlar və xarici ölkələrin gömrük orqanları ilə əlaqələr"** yarımfəslində göstərilir ki, tranzit ölkə kimi Azərbaycan Respublikasının dünya dövlətləri və beynəlxalq təşkilatlarla gömrük əməkdaşlığının genişlənməsi xüsusi əhəmiyyət daşımışdır. 1999-cu ilin sentyabr ayında postsovet məkanında ilk dəfə olaraq DGT-nin Baş Katibinin Azərbaycana rəsmi səfəri ikitərəfli əlaqələrin yaradılması və inkişaf etdirilməsinə daha əlverişli şərait yaratdı. Azərbaycanın gömrük təşkilatının 1999-cu il iyunun 24-də DGT-nın Maliyyə Komitəsinə, 2000-ci il iyunun 6-da isə bu təşkilatın Siyasi komissiyasına üzv seçilməsi gömrük işi sahəsində beynəlxalq əməkdaşlığa yeni istiqamət verdi. DGT-nin Bakı Regional Tədris Mərkəzində keçirilən beynəlxalq seminarlar əsasən kadrların ixtisas səviyyəsinin və peşəkarlığının artırılması və təcrübə mübadiləsinə xidmət edirdi. Mərkəzdə 2008-ci ildən başlayaraq keçirilən harmonik sistem üzrə regional seminarlar daimi xarakter almışdı. Təkcə 2010-cu il aprelin 12-16-da DGT-nin "Harmonik Sistemin əsas şərhetmə Qaydaları"na dair regional seminarına Azərbaycan daxil olmaqla 17 ölkənin nümayəndə heyəti qatılmışdı. "Gömrük prosedurlarının sadələşdirilməsi və

---

[1] Azərbaycan və ABŞ gömrük xidmətləri arasında əməkdaşlıq əlaqələri genişlənir // "Gömrükçü", AR DGK, 2006, № 12, s.22.

uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın müddəalarının (Kioto Konvensiyası) və DGT-nin "Beynəlxalq Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyi Üzrə Çərçivə Standartları"nın milli gömrük qanunvericiliyində əks olunması üçün işlər aparılırdı. Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti" çərçivəsində "Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planı"nın ölkəmizin gömrük xidmətinin təkmilləşdirilməsi ilə bağlı müddəalarının yerinə yetirilməsi mühüm əhəmiyyət daşıyırdı. "Böyük İpək Yolu" ölkələri arasında ticarətə yardım və onun asanlaşdırılması üzrə gömrük idarələrinin roluna dair 2-ci Beynəlxalq Forumda qəbul edilmiş "İpək Yolu ölkələrində sərhəd buraxılış məntəqələrinin modernləşdirilməsi ilə ticarətin asanlaşdırılması və regional gömrük əməkdaşlığının genişləndirilməsi üzrə Karvansara" layihəsi ilə bağlı işlər davam etdirilirdi.

Beşinci fəsilə aşağıdakı nəticələrlə yekun vurulmuşdur:

– Azərbaycanı Respublikasının gömrük işi sahəsində imzaladığı beynəlxalq sazişlər əməkdaşlıq və qarşılıqlı yardımı, xarici ticarətin gömrük statistikası sahəsində metodoloji və informasiya sahəsində qarşılıqlı fəaliyyəti əhatə edirdi;

– beynəlxalq hüquqi əməkdaşlığa gömrük sənədlərinin və gömrük təminatlarının qarşılıqlı tanınmasını, sərhədlərdən qanunsuz keçirilən mədəni sərvətlərin tutulub saxlanılması və qaytarılması, həmçinin gömrük qanunvericiliyinin düzgün tətbiqi və gömrük hüquqpozmalarının qarşısının alınması məsələləri daxil idi;

– qabaqcıl ölkələrin gömrük işi sahəsində təcrübəsinin öyrənilməsində beynəlxalq təşkilatların ekspertləri ilə əməkdaşlığa üstünlük verilməsi bu əlaqələrin əsas prinsiplərini təşkil edirdi.

Beynəlxalq gömrük münasibətlərinin aktual məsələlərindən biri də ölkəmizin Avrasiya Gömrük İttifaqına qoşulmasının iqtisadi və siyasi maraqlarımıza uyğun olması haqqında aparılan müzakirələrdir. Bu məsələ MDB-yə daxil olan ölkələri vahid iqtisadi məkanda birləşdirmək və modern gömrük münasibətlərinə köhnə imperiya mövqeyindən yanaşmaq cəhdi kimi qiymətləndirilməlidir. Azərbaycanın yaxın və uzaq perspektivdə həmin quruma daxil olması milli maraqlarımızla, iqtisadi və siyasi müstəqilliyimizlə, nəhayət dövlətin gömrük siyasəti ilə uzlaşmır.

Azərbaycan hökuməti indiki halda Avrasiya Gömrük İttifaqına qoşulmağı mümkün hesab etmir. Torpaqlarımız işğal altında qaldıqca və Dağlıq Qarabağ məsələsi siyasi həllini tapmayınca Azərbaycanın bu təşkilata üzvlük məsələsi müzakirə mövzusu ola bilməz.

**Nəticə** hissəsi nəzəri ümumiləşdirmələri və prinsipial nəticələri əhatə edir. Gömrük nəzarətinin səmərəlilik göstəricilərinin qiymətləndirilməsi

elmi əsaslar üzərində qurulmalı, gömrük xidmətinin struktur bölmələrinin və ayrı-ayrı əməkdaşların peşəkarlıq səviyyəsini müəyyən edən monitorinqlər aparılmalıdır. Bu məqsədlə, gömrük idarəçiliyi daim təkmilləşdirilməli və tam şəffaflığa əsaslanan nəzarət-buraxılış sistemi yaradılmalıdır. Kadr potensialının gücləndirilməli, gömrük əməkdaşlarının xarici ölkələrin nüfuzlu gömrük məktəblərində təhsil alması, beynəlxalq və regional səviyyədə keçirilən seminar və kurslarda fəal iştirakı təmin edilməlidir. Xarici iqtisadi fəaliyyət iştirakçılarına, xarici ticarət sahəsində fəaliyyət göstərən sahibkarların gömrük xidmətinin elektron müraciət sistemindən daha geniş istifadə etməsinə əlverişli şərait yaradılmalıdır. Elmi və tarixi əhəmiyyət daşıyan gömrük sənədləri dövlət arxiv fondunun xüsusi hissəsinə daxil edilməlidir və s. Araşdırmanın nəticələri təsdiq edir ki, çevik və düşünülmüş gömrük siyasətinin işlənilib hazırlanmasında tarixi təcrübənin hərtərəfli öyrənilərək tətbiq edilməsinin mühüm əhəmiyyəti vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 4 mart tarixli Sərəncamında göstərildiyi kimi, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsində, ölkədə sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşmasında, iqtisadi təhlükəsizliyimizin möhkəmləndirilməsində gömrük sisteminin rolu və əhəmiyyəti daha da artmışdır.[1]

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


**I. Monoqrafiyalar:**

1. Gömrük işi Azərbaycan dövlətçiliyi tarixində: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Bakı: 2015. - 360 s.
2. Gömrük işi Azərbaycan dövlətçiliyi tarixində: Azərbaycan SSR sovet gömrük sistemi şəraitində (1920-1991). Bakı: 2015. - 308 s.
3. Gömrük işi Azərbaycan dövlətçiliyi tarixində: Azərbaycan Respublikasında gömrük sisteminin inkişafı (1991-2014). Bakı: 2015. - 448 s.

**II. Məqalələr:**

4. Müstəqil Azərbaycan Respublikasında gömrük işinin təşkili / Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: Elm, 2007, s.164-181.
5. Organizations of customs service in the independent Republic of Azerbaijan / Customs service of Azerbaijan: Historic traditions an modernity. Baku, 2007, pp.124-137


[1] "Xalq qəzeti", 2016, 5 mart

6. Azərbaycan gömrüyü: əməkdaşlıq meridianları / Dirçəliş XXI əsr, 2008, №122-123, s.349-358.
7. Azərbaycan-Türkiyə gömrük əməkdaşlığının inkişaf etdirilməsində Naxçıvan Muxtar Respublikasının rolu (1992-2006-cı illər) / Naxçıvan bu gün: islahatlar və perspektivlər. 5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları. Naxçıvan, 2008, s. 199-205.
8. Heydar Alıyev and establishment of the national customs service in Azerbaijan Republic / Azərbaycan və azərbaycanlılar, 2008, №5-8, s.42-46.
9. Azərbaycan Xalq Cümhuriyyətinin gömrük quruculuğu sahəsində təcrübəsindən / AMEA Tarix İnstitutunun Elmi Əsərləri, 2008, №25, s.69-77.
10. Azərbaycan Xalq Cümhuriyyətində gömrük sərhədinin mühafizəsi / Dirçəliş XXI əsr, 2009, №133-134, s.373-386.
11. Azərbaycan Respublikasının gömrük qanunvericiliyi və gömrük-tarif siyasətinin formalaşması (1992-2002-ci illər) / Tarix İnstitutunun Elmi Əsərləri, 2010, №32, s. 121-128 s.
12. О роли таможенного сотрудничества стран СНГ и Центральной Азии в рамках экономической безопасности / Кавказ и мир. Тбилиси, 2010, № 9, с.43-47.
13. Heydər Əliyev və Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri / Dirçəliş XXI əsr, 2010, №145-146, s.132-142.
14. Azərbaycan Respublikası xarici iqtisadi siyasətinin həyata keçirilməsində gömrük xidmətinin rolu (1992-2002-ci illər) / Pedaqoji Universitet Xəbərləri, 2010, №3, s. 77-85.
15. Azərbaycan Xalq Cümhuriyyətinin neft ixracı sahəsində gömrük-tarif siyasəti (qanunvericilik, satışı və daşınmasına gömrük nəzarətinin təşkili) / Pedaqoji Universitet Xəbərləri, 2010, №6, s. 157-163.
16. Azərbaycan Xalq Cümhuriyyəti və milli gömrük qanunvericiliyinin yaradılması / Dirçəliş XXI əsr, 2011, №160-161, s.374-394.
17. Из истории азербайджано-грузинских торговых связей в 1918-1920 гг. /«Кавказ и мир». Тбилиси, 2011, № 10, с. 90-93.
18. The great ion of the soviet customs services in Azerbaijan SSR / Azərbaycan və azərbaycanlılar, 2012, №113-114, s.102-106.
19. Sovet gömrük sistemi şəraitində Azərbaycan SSR-nin xarici ticarəti (1923-1930-cu illər) /Tarix və onun problemləri, 2012, №3, s. 217-222.
20. Azərbaycanda gömrük işinin tarixi arxiv sənədlərində / Tarix və onun problemləri, 2012, №2, s.119-122.
21. Azərbaycan gömrüyü ikinci dünya müharibəsi illərində / Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2012, №4, s.111-117.

22. Azərbaycan SSR-də müstəqil xaric iqtisadi siyasət yeritmək cəhdləri və sovet gömrük idarəçiliyinin təşkili (1920-1923-cü illər) / Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2012, №2, s.168-174.
23. Ulu öndər Heydər Əliyevin dövlətçilik fəaliyyətində gömrük işi məsələləri /Tarix və onun problemləri, 2013, №2, s. 157-163.
24. Milli gömrük xidmətinin təşəkkülü və formalaşmasında ümummilli lider Heydər Əliyevin rolu /AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Xüsusi buraxılış. Naxçıvan, 2013, s. 142-148.
25. Some questions on the realization trade and customs interests of Sovet Russia and the USSR in Azerbaijan (20S of the XX century) / Научная дискуссия: инновации в современном мире. Сб. трудов XI Межд. научно-практической конф. М.: 2013, с. 168-174.
26. Концептуальные основы таможенной политики Азербайджанской Республики в обеспечении экономической безопасности / Проблемы и перспективы социально-экономического реформирования современного государства и общества. Мат. научно-практической конф. М.: «Спецкнига», 2013, с. 9-13.
27. The fight of national customs service against the drug addiction within the framework of international cooperation / European Applied Sciences, Stuttgart, Germany, 2013, №7, pp. 30-32.
28. Xarici iqtisadi əlaqələr / Heydər Əliyev. İki cilddə, I c. Bakı: "Turxan" NPB, 2013, s.180-195.
29. Xarici iqtisadi əlaqələr / Heydər Əliyev. İki cilddə, II c. Bakı: "Turxan" NPB, 2013, s.325-337.
30. Azerbaijan: the organization of customs control in the years of World War II / Materials of the I international Scientific Conference. Vol.I, December 17-18th, 2013, Cikaqo, USA, pp. 246-250.
31. Birinci Dünya müharibəsi ərəfəsində Şimali Azərbaycan ərazisində idxal-ixrac əməliyyatları / AMEA Tarix İnstitutunun Elmi Əsərləri. Bakı, 2014, 40-43, s.118-127.
32. Azərbaycan Xalq Cümhuriyyətinin gömrük vergi siyasətində milli maraqların müdafiəsi / Strateji Təhlil. SAM, 2014, № 2 (9), s. 215-230.
33. Heydər Əliyev və sovet gömrük sistemi şəraitində Azərbaycan SSR-nin xarici ticarətinin inkişafı (1970-1980-ci illər)/ADDA-nın Elmi Əsərləri Bakı, 2014, №2, s.162-174.
34. О таможенной политике России в Северном Азербайджане (XIX – начало XX вв.) / Научный поиск в веке. Мат. I научной конференции по евразийскому научному сотрудничеству. М.: 2014, с. 75-79. DOI: 10.17809/01(2014)-14

35. Dəniz və dəmir yolu ilə yük daşımalarının Azərbaycanın xarici ticarətinin inkişafında rolu (1920-ci illərin gömrük sənədləri əsasında) /ADDA-nın Elmi Əsərləri Bakı, 2015, №2, s.307-314.
36. The Republic of Azerbaijan in international customs relations: the protection of material and cultural wealth / «Advanced Studies in Science: Theory and Practice» / London, 2015, pp.24-28 / DOI: 10.17809/03
37. Бакинские международные ярмарки в таможенных документах (1922-1929 гг.) / Вопросы истории. М.: 2016, № 2, с.134-143.
38. Xarici iqtisadi əlaqələr /Azərbaycan Respublikasının tarixi (1991-2003). İki cilddə. 1 c. Bakı: “Turxan” NPB, 2016, s.321-333.
39. Gömrük siyasəti və onun təkmilləşdirilməsi / Azərbaycan Respublikasının tarixi (1991-2003). İki cilddə. 2 c. Bakı: “Turxan” NPB, 2016. – s.105-114.
40. Vergi siyasəti / Azərbaycan Respublikasının tarixi (1991-2003). İki cilddə. 2-ci cild. Bakı: Azərbaycan tarixçilərinin ictimai birliyi, 2016. – 716 s. – S.114-123.
41. Beynəlxalq iqtisadi əlaqələr / Azərbaycan Respublikasının tarixi (1991-2003). İki cilddə. 2 c. Bakı: “Turxan” NPB, 2016, – s.124-133.
42. Xəzər dəniz nəqliyyatı və Bakı Limanı İkinci Dünya müharibəsi illərində / “Su nəqliyyatının problemləri” XII beynəlxalq elmi-texniki konfransın materialları. ADDA. Bakı, 2017, s.236-243.

**Рофат Али оглы Гулиев**

## История организации и развития таможенного дела в Азербайджанской Республике (1991-2011 гг.)


## РЕЗЮМЕ

Диссертация состоит из введения, пяти глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, дается обзор источников и анализ историографии, определяются цели и задачи, методологическая основа исследования, указывается научная новизна, теоретическое и практическое значение темы. Изучение этой темы, анализ научной литературы в исследуемый период показывает, что историографическая база теоретических и практических разработок по истории формирования и развития таможенного дела в Азербайджанской Республике весьма узка.

В первой главе диссертации сделан экскурс в историю таможенного дела в Азербайджане. После объявления независимости Азербайджана в майе 1918 г., сформировалась национальная система таможенных органов. В диссертации анализируются некоторые моменты истории осуществления общеимперских экономических интересов советской России и бывшего Союза ССР в Азербайджане в годы советской власти. Все государственные структуры, в том числе таможенные власти, подчинялись директивам и указаниям центральных советских органов. В эти годы исторически формировалась сеть таможенных учреждений, которые были в подчинении Бакинской таможни.

Во второй главе освещается процесс создания национальной таможенной службы, как один из важных государственных структур после завоевания Азербайджанской Республикой независимости. Указывается, что правильно осуществленная таможенная политика, основные положения которой выработаны Гейдаром Алиевым, играла очень важную роль в дальнейшем развитии экономики Азербайджанской Республики. В диссертации подробно рассматривается процесс осуществления экономической стратегии Азербайджанской Республики разработанной общенациональным лидером Гейдаром Алиевым.

В третьей главе рассматривается, что за счет увеличения числа торговых и экономических партнеров, огромный транзитный поток

диктовал новый юридический подход всему таможенному механизму. Поэтому в эти годы разработаны и изданы целый ряд документов нового таможенного законодательства. Благодаря нормотворческой деятельности ГТК республики создана основа ведения в практику системы контроля за безопасность ввозимых в Азербайджан иностранных товаров, приняты законы о таможенном тарифе (в 1997 и 2011 гг.).

В четвертой главе подробно исследованы вопросы усовершенствования таможенного дела. Перевод экономики Азербайджана на рыночные отношения обусловил необходимость возрождения таможенной политики как важнейшей сферы политической, экономической и правовой деятельности государства, как важного инструмента государственного регулирования внешнеэкономической деятельности. В диссертации анализируется, что таможня одновременно активно борется не только с правонарушениями в сфере таможенного законодательства, но и пересекает незаконные каналы перемещения наркотических и психотропных веществ, оружия, незаконно приобретенными или похищенными предметами культуры и искусства.

В пятой главе исследуются вопросы международного сотрудничества таможенных органов Азербайджана. Благодаря политике тесного сотрудничества ГТК Азербайджана заняла достойное место во многих международных организациях – ООН, Организации Экономического Сотрудничества, Всемирной Таможенной Организации и т.д. Со многими таможенными органами стран СНГ, Европы, Азии, Америки и Африки наложено тесные двусторонние отношения в области таможенного контроля.

В заключении подведен итог проведенных научных исследований.

Rofat Ali oghli Guliev

**The history of organization and development of customs in the Azerbaijan Republic (1991-2011 years)**

**SUMMARY**

The dissertation consists of the introduction, five chapters, the conclusion and bibliography.

In the introduction the urgency of the theme is grounded, the review of sources and the analysis of historiography is provided, the goals and objectives, methodological basis of the research are defined, the scientific novelty, theoretical and practical importance of the theme are underlined. Studying of the theme, analysis of scientific literature during the investigated period shows that the historiographic base of theoretical and practical research on history of formation and development of customs business in Azerbaijan Republic is rather narrow.

In Chapter I of the dissertation is made excursion to history of customs in Azerbaijan. After the declaration of Azerbaijan's independence in May 1918, the national system of customs bodies was formed. In the dissertation some moments of history of realization all-imperial economic interests of the Soviet Russia and the former USSR in Azerbaijan during the Soviet era are analyzed. All state structures, including the customs authorities were submitted to directives and instructions of the central Soviet organs. These years the network of customs offices which were subordinated to the Baku customs was historically formed.

In Chapter II is highlighted the process of creating the national customs service as one of the most important state institutions after the Azerbaijan Republic gained its independence. It is underlined, the correct implementation of customs policy, basic proposition of which were drafted by Heydar Aliyev played a very important role in the further development of economy of the Azerbaijan Republic. In the dissertation the process of realization of economic strategy of the Azerbaijan Republic developed by the national leader Heydar Aliyev is considered in detail.

In Chapter III is examined that by increasing the number of trade and economic partners, the huge transit flow dictated a new legal approach to all customs mechanism. The refore, in these years were developed and published a number of documents of the new customs law. Thanks to rulemaking activity of the State Customs Committee of the Republic was established practice in the basics of control systems for the safety of imported

foreign goods to Azerbaijan, were passed laws on customs tariff (in 1997 and 2011 years).

In Chapter IV were investigated in detail issues on improvement of customs. Transfer of Azerbaijan economy to market relations has made necessary to revive the customs policy as major sphere of political, economic and legal activity of the state as an important instrument for state regulation of foreign trade activities. In the dissertation is analyzed that the customs simultaneously actively struggles not only with infringement of the law in the sphere of customs law, but also cuts illegal channels of moving drugs and psychotropic's, weapons, illegally purchased or stolen items of culture and art.

Chapter V examines issues of international cooperation of Azerbaijan's customs bodies. Owing to the policy of close cooperation the State Customs Committee of Azerbaijan has taken a worthy place in many international organizations - the United Nations, Organization of Economic Cooperation, World Customs Organization etc. Close bilateral relations in the field of the customs control have been laid with many customs bodies of the CIS countries, Europe, Asia, America and Africa.

In the conclusion the scientific research was summed up.

Kağız formatı 60x84 - 1/16
Tiraj 100

AMEA TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**РОФАТ АЛИ оглы ГУЛИЕВ**

# ИСТОРИЯ ОРГАНИЗАЦИИ И РАЗВИТИЯ ТАМОЖЕННОГО ДЕЛА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ (1991-2011 гг.)

Специальность: 5503.02 – Отечественная история

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора исторических наук

**БАКУ - 2018**